QARABAĞ AZƏRBAYCANDIR!



**Azərbaycan mədəniyyətinin hamisi - Heydər Əliyev**

4

## Bakıda abadlıq-quruculuq işlərinin həcmi artmaqdadır

2



Səs

№ 242 (6683) 31 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# 31 dekabr - Dünya azərbaycanlılarının birlik və həmrəylik günü!



*Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan həmvətənlilərimizin təşkilatlanması, ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub. Diaspor quruculuğu işi daima Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edib. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur.*

3

**Əlvida 2022, xoş gəlirsən 2023!**




5

**Erməni vəhşiliyi bəşəriyyətin varlığına təhlükədir**




8




*Əfsanəvi braziliyalı futbolçu Pele 82 yaşında vəfat edib. O, uzun müddət xərçənglə mübarizə aparıb.*

16

**Orta Dəhlizin genişlənməsində mühüm həlqə - Zəngəzur**




13

**Rusiyanın iri teleqram kanalı ermənilərə "ağ yudu, qara sərdi"**



14

# Bakıda abadlıq-quruculuq işlərinin həcmi artmaqdadır

*Prezident İlham Əliyev Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak edib*








***Azərbaycan Prezidenti İlham Əliyev dünən Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak edib. Dövlətimizin başçısına Bakının Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verildi.***

Bildirildi ki, paytaxtın keçmiş "Sovetski" adlanan ərazisində yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və abadlıq işlərinə 2013-cü ilin noyabr ayında başlanılıb. Avstriyalı memar Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın salınmasında məqsəd Bakının simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətini müasir xidmətlərə uyğun təşkil etməkdir.

Layihənin ən mühüm xüsusiyyətlərindən biri İsmayıl bəy Qutqaşınlı küçəsindən Mərkəzi Banka qədər olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanlarının yaradılmasıdır. Orijinal layihəyə əsasən, ərazi yüksək səviyyədə abadlaşdırılıb, müasir tələblərə uyğun yeni infrastrukturlar yaradılıb, dövlət əhəmiyyətli yollar, piyada keçidləri, yol qovşaqları inşa edilib və digər kommunikasiya xətləri çəkilib, şəhər sakinləri və qonaqların səmərəli istirahəti üçün paytaxta xüsusi yaraşıq verən park salınıb. Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib.

Növbəti mərhələdə isə Mərkəzi Parkın ikinci hissəsində müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, kommunikasiya xətlərinin yenidən qurulması, şəhər sakinləri və qonaqlar üçün istirahət parkının salınması istiqamətində işlər davam etdirilib. Layihəyə əsasən, Mirzəağa Əliyev və Bəşir Səfəroğlu küçələrinin arasında yerləşən parkın yeni hissəsinin qurulması üçün 6,4 hektar ərazi təmizlənərək abadlaşdırılıb, ən müasir infrastrukturlar və kommunikasiyalar çəkilib. Aparılan abadlıq və yenidənqurma işləri çərçivəsində ərazidəki torpaq səthi dəyişdirilib, yaşıllaşdırmanın keyfiyyətini və landşaft dizaynını daha da yaxşılaşdırmaq üçün 57 min 500 kubmetrdən çox münbit torpaq gətirilib. Həmçinin yaşıllaşdırma işləri ərazinin iqlim şəraiti, florası və ətraf mühiti nəzərə alınmaqla aparılıb.

Parkın ərazisinin 4 hektarında 19 növdə 2764 ağac, 20 mindən çox gül və kol bitkiləri əkilib. Yeni salınan yaşıllıqları suvarmaq üçün müasir tələblərə uyğun damcılama və çiləyici qurğular quraşdırılıb, drenaj xətləri çəkilib. Eyni zamanda, istirahət parkının ərazisində müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb. Mərkəzi Parkın ərazisində iki açıq kafe, bir fəvvarə kompleksi və avtomobillər üçün açıq dayanacaq da fəaliyyət göstərəcək.

Dövlətimizin başçısına məlumat verildi ki, görülən işlər çərçivəsində parkın ətrafındakı Mirzəağa Əliyev, Bəşir Səfəroğlu və Çingiz Mustafayev küçələrində yol infrastrukturu da yenidən qurulub, ərazidə yeni parkinq, piyada səkiləri tikilib, işıq dirəkləri, işıqforlar quraşdırılıb, drenaj və kanalizasiya sistemləri çəkilib.

Beləliklə, Mərkəzi Parkın ikinci hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" ərazisində salınan parkın ümumi sahəsi 26,4 hektara çatdırılıb. Park 5,4 kilometr uzunluğunda olan piyada yolları, 18 hektarlıq yaşıllıq sahəsi, 7 uşaq meydançası, 2 idman meydançası, 6 fəvvarə kompleksi, 190 avtomobillik açıq, 347 avtomobillik isə qapalı dayanacaqdan ibarət olmaqla, paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasname"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# 31 dekabr - Dünya azərbaycanlılarının birlik və həmrəylik günü!



***Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan həmvətənlilərimizin təşkilatlanması, ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub. Diaspor quruculuğu işi daima Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edib. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur.***

Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, ümumi milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcını qoydu.Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyinin nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 20 il keçir. Tarixi dövr ərzində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 500-ə yaxındır. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar. Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar. Mövcud vəziyyət, belə deməyə əsas verir ki, yeni dünya düzəni və qloballaşma prosesləri nəticəsində, diasporlar yalnız müəyyən dövlətin ərazisində məskunlaşmış eyni milli mənsubiyyətli insanların yaratdıqları ictimai hərəkat və ya birlik kimi nəzərdən keçirilmir, onlar həm də təmsil etdikləri xalqın milli maraqlarının fəal müdafiəçisi kimi də tanınırlar. Bu gün Azərbaycan diasporu dünyanın bütün qitələrində ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Almaniya, İspaniya, Qazaxıstan və İtaliya kimi onlarla dövlətdə fəaliyyət göstərir. Dünya ölkələrində Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar diaspora quruculuğu siyasətinin məntiqi olaraq təşəkkül tapıb. Diasporun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlib.

### "MƏN ÇOX İSTƏYİRƏM Kİ, XARİCDƏ FƏALİYYƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARI DA BİR NÖQTƏYƏ VURSUNLAR, BİRLƏŞSİNLƏR"

Ölkəmizdə keçirilən dünya azərbaycanlılarının qurultayları da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələr sırasındadır. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlir, birliyi və həmrəyliyi nümayiş etdirirlər. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsinin aparılması dünya azərbaycanlılarının daha da sıx birləşməsinə təkan oldu.

Azərbaycanın bir sıra dünya ölkələrdəki formalaşmış diaspor fəalları Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında mühüm rol oynayırlar. Son vaxtlar ölkəmizin siyasi həyatında baş verən hadisələr zamanı soydaşlarımızın vətən naminə atdığı addımlar, yumruğu bir yerə vurması dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bir amal, məqsəd uğurunda birləşməsinin bariz nümunəsidir. Bu gün əzəli torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan İkinci Qarabağ savaşında qazanılan tarixi Qələbəni bütün dünya azərbaycanlıları yaşadı. Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycpaanlı həmrəy oldu. Bir yumruq ətrafında birləşirdi. Bu, ən böyük uğurlarımız sırasındadır. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir Azərbaycanlının qəlbi doğma yurdla döyünür. Əlbəttə ki, Azərbaycan dövləti hər zaman həmvətənlərinin yanındadır. Dünya ölkələri tərəfindən tanınması, haqq səsinin dünyaya çatdırılmasında kifayət qədər güclüdür, güclü diasporu formalaşıb. Vətənin haqq səsini yaşadıqları ölkələrdə ifadə gücündədirlər. Azərbaycan diasporunun belə mütəşəkil olması əlbəttə ki, diaspor quruculuğu sahəsində dövlətimizin apardığı ardıcıl siyasət, tətbiq edilən yeni proqramlar bəhrəsini verir. Görülən ardıcıl tədbirlər, dövlət tərəfindən işlənib hazırlanan konkret strateji istiqamətlər həmvətənlərimizin məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirməyə imkan yaradır.Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir.

### AZƏRBAYCAN XALQI GƏLƏCƏYƏ BÖYÜK ÜMİDLƏRLƏ BAXAN SÜLHSEVƏR XALQDIR

Bütün Türk dünyasının mədəniyyət beşiyi qədim Şuşa şəhərində Dünya Azərbaycanlılarının V qurultayının keçirilməsi tariximizdə yeni səhifə açdı. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaqların iştirak etdiyi Qurultayın açılışında Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev söylədiyi geniş nitqində bu möhtəbər tədbiri Zəfər qurultayı elan etdi. Azərbaycan Prezidentinin Qurultayda söylədiyi nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva edi.Qurultayda Prezident İlham Əliyev öz çıxışında "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər", - deyib. Dünya Azərbaycanlılarının V Qurultayı da, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən davam etdirilən böyük strategiyanın, milli həmrəylik konsepsiyasının uğurlu davamının məntiqidir.

***Zümrüd BAYRAMOVA***

***Ölkəmizin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Belə ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində titanik fəaliyyət göstərmiş və fundamental uğurlara nail olmuşdur.***



# Azərbaycan mədəniyyətinin hamisi - Heydər Əliyev







Ümummilli Lider Azərbaycanın rəhbəri olduğu bütün dövrlərdə iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına diqqət göstərmiş və heç bir zaman qayğısını əsirgəməmişdir. Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətinin ayrı-ayrı istiqamətlərini təhlil etdikdə Ulu Öndərin ömrünü həqiqətən də xalqına həsr etdiyinin şahidi oluruq. Çoxəsrlik dövlətçilik tariximizdə xüsusi yeri olan Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti və miqyası etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Beynəlxalq aləmdə cərəyan edən proseslərə təsiri baxımından həmişə seçilən və qlobal dünyanın ən aktual çağırışlarına cavab verən Azərbaycan rəhbəri zəmanəmizin tanınmış siyasi xadimləri sırasında şərəfli yer tutmuşdur. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycan gerilikdən, tənəzzüldən çıxmışdır. Kənd təsərrüfatının, sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində, əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilmişdir. Təhsil sistemi genişləndirilmiş, yeni ali məktəblər, onlarla fakültə və kafedra yaradılmışdır. Moskvada, Leninqradda, keçmiş ittifaqın digər şəhərlərində Azərbaycan üçün yüksək ixtisaslı kadrların hazırlanması təmin edilmişdir. Ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızın problemlərinin həllində, Azərbaycan diasporunun təşkilatlanmasında və inkişafında da mühüm rol oynamışdır. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında əsrin tarixinə yazdığı uğurları ilə əbədiləşən Ulu Öndər Heydər Əliyev xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynamış siyasi liderdir. Azərbaycan mədəniyyətinin və incəsətinin inkişafına Heydər Əliyev böyük töhfələr vermişdir. Ulu Öndər Azərbaycanın bütün sahələri üzrə dinamik inkişafa qədəm qoymaqla yanaşı, milli mədəniyyətimizin daha yüksək zirvələr fəth etməsi üçün də möhkəm zəmin yaratmışdır. Xalqın milli ruhu, milli kökü zəminində formalaşan ideoloji xəttin əsasında Azərbaycançılıq ənənələri dayanırdı. Heydər Əliyev zamanla ölçülməyən bir ömür yaşadı. Bu ömrün arxasında Azərbaycan, Azərbaycana xidmət, Azərbaycanın sivilizasiyası dayanır. Heydər Əliyev şəxsiyyət, siyasi xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq Azərbaycan tarixində əsrin lideri olduğunu təsdiqlədi.

### AZƏRBAYCAN XALQININ GƏLƏCƏK İNKİŞAFININ TƏMƏLİ QOYULDU

Xalqın tarixinə iz salan 15 iyun Azərbaycanın ictimai-siyasi, mədəni həyatında hadisəyə çevrildi. Həmin tarixi gün - ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda çevriliş baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn və qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil etdi. Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. Zaman ən böyük hakim olduğundan qısa bir məsafədən Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi. 15 iyun 1993-cü il tarixində baş verən hadisə - Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Sonrakı illərdə, eləcə də Ulu Öndərin sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi dövründə yazılan hər bir tarixi an Heydər Əliyevin müdrik siyasətinin nəticəsində reallaşdı. Azərbaycanın inkişafında yeni bir mərhələ başladı. Yaradılmış baza üzərində Azərbaycanın daha sürətli inkişafı, dünya iqtisadiyyatına inteqrasiyası təmin olundu və Azərbaycan tamamilə yeni bir müstəviyə keçdi. 1993-cü il 15 İyun Azərbaycan xalqının Qurtuluş Günü Azərbaycanın dirçəldilməsinə və intibahına səbəb oldu. Azərbaycan xalqı parçalanmaq təhlükəsindən qurtuldu. Azərbaycan xalqı öz dövlətçiliyini itirməkdən qurtuldu. Azərbaycan xalqı səriştəsiz siyasətçilərin əlindən xilas oldu. Azərbaycan xalqının torpaqları əldən gedirdi ki, bu proses dayandırıldı. Azərbaycan bütünlükdə dağılmaqdan, yerlə-yeksan olmaqdan qurtuldu. Bu qurtuluşun nəticəsi olaraq Azərbaycan xalqı gələcək inkişafının təməlini qoydu.Ölkədə sabitlik hökm sürməyə başladı. İnsanlar rahat nəfəs almağa, istirahətlərini təşkil etməyə lazımi şəraiti əldə etməyə nail oldular. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı hadisələrin buxovundan xilas etdi, onun müstəqil dövlət kimi inkişafına təkan verdi. Azərbaycanın stabil dövlət kimi yaşamasında həmin gün bir nümunə idi. Onun ölkəyə rəhbərlik etdiyi dövr xalqın milli özünüdərki, özünəqayıdışı kimi səciyyələndirilir. Azərbaycan tarixinin dönüş nöqtəsi 1969-cu ildən başlanır. Azərbaycan həyatında baş verən proseslər Heydər Əliyevin hakimiyyətdə olduğu bir zamanda öz həllini tapdı. Sovet dövründə, eləcə də müstəqillik illərində elmi-mədəni potensialdan istifadə dövlətin siyasətinin başlıca amilləridir. Dövrün tələblərini nəzərə alaraq, zəngin dəyərlərə malik olan xalqın intellekt potensialının üzə çıxarılması istiqamətində ardıcıl, məqsədyönlü fəaliyyət qısa bir zamanda öz nəticələrini vermiş oldu. Ölkə daxilində XX əsrin 80-90-cı illərdə baş verən daxili çəkişmələr, xarici müdaxilələr Onun uzaqgörən, müdrik siyasəti nəticəsində aradan qaldırıldı. 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdinin qarşısının alınması ümummilli liderimizin dahi bir şəxsiyyət olduğunu bir daha təsdiqlədi. Uzaqgörən siyasəti, dünyada baş verən prosesləri dərk etmək bacarığı Azərbaycan xalqını yaranmış xaosdan, mənəvi-psixoloji sarsıntıdan, maddi çətinlikdən uzaqlaşdırdı.

Ardı Səh. 5

# Azərbaycan mədəniyyətinin hamisi - Heydər Əliyev

Əvvəli-Səh-4

### AZƏRBAYCAN DÜNYANIN MƏDƏNİYYƏT MƏKANINA UĞURLA İNTEQRASİYA OLUNDU



1993-cü il tarixinə qədər Azərbaycan çox böyük problemlərlə qarşılaşdığından, mədəniyyət müəssisələri artıq dağıdılmağa başlamışdır. Bir çox sahələrin mütəxəssisləri kimi mədəniyyət işçilərinin də vəziyyəti kəskin hal almışdı. Acınacaqlı vəziyyətə düşmüş mədəniyyət müəssisələri yenidən qurulmağa, bərpa və təmir edilməyə başladı. Bu sahədə Ümummilli Liderin imzaladığı çoxsaylı sərəncamlar əsaslı dəyişikliklərlə nəticələndi. Respublikamızda kitabxanalar yaradıldı, muzeylər açıldı, teatr və musiqi ocaqları təmir edildi, eləcə də, ali təhsil ocaqlarına xüsusi diqqət yetirildi. Bütün bunların hər biri Azərbaycanın inkişafına, eləcə də gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə təkan verdi. Mövcud mədəniyyət müəssisələri təmir edildi, əhaliyə göstərilən mədəni xidmət yüksəldildi. Tarixi muzeyşünaslıq, diyarşünaslıq müəssisələri yaradıldı.

Heydər Əliyevin müvafiq fərmanlarına əsasən, Məhəmməd Füzulinin 500 illik yubileyinin İraq, İran, Türkiyə, Fransa və Rusiyada, dünya şöhrətli müğənnimiz Bülbülün 100 illik yubileyinin Moskvada, Tiflisdə və Ankarada, unudulmaz bəstəkarımız Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə, Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada, Azərbaycan xalqının milli eposu "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin Fransada yüksək səviyyədə qeyd olunması Azərbaycan mədəniyyətinə Heydər Əliyevin diqqət və qayğısının təcəssümüdür. Bakıda qeyd olunan tanınmış sənət adamlarının, xalq artistlərinin tarixi yubileyləri - Şövkət Ələkbərovanın, Qəmər Almaszadənin, Leyla Vəkilovanın, Nəsibə Zeynalovanın, Tofiq Quliyevin və başqalarının yaradıcılığına həsr olunmuş təntənəli gecələr də milli mədəniyyətimizin tarixinə yazılan uğurlu hadisələr sırasına daxil olmuşdur. Bu tədbirlərin hər birində ümummilli liderimiz Heydər Əliyevin şəxsən iştirak etməsi dövlət rəhbəri tərəfindən sənətə, sənətkara verilən yüksək qiymətdir.



Dünyanın ən müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilmişdir. Buna misal olaraq Avropanın və Asiyanın bir çox ölkələrini, eynilə Rusiya, Moldova, Ukrayna, Özbəkistan, Gürcüstan və s. ölkələri göstərmək olar. Tanrının xalqımıza bəxş etdiyi Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycanı yaratdı. Bugünkü Azərbaycan Onun şah əsəridir. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilk olaraq ölkədə stabitliyi təmin etdi. Yaradıcı mühit formalaşdı. Lazımsız senzura ləvğ olundu. Bu gün Azərbaycan mədəniyyəti ənənələri üzərində inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin mədəniyyət sahəsinə dair imzaladığı fərman və sərəncamlar milli mədəniyyətimizin dünyada tanıdılması, ölkəmizin dünyanın mədəniyyət məkanına uğurla inteqrasiya olunması,milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi istiqamətində müəyyən nəticələrə nail olulur. Dövlət başçısının mədəniyyət siyasəti nəticəsində əldə olunan uğurların miqyası geniş və əhatəlidir. Mədəniyyət cəmiyyətin müasir inkişaf səviyyəsi, insanın yaratdığı, nəsildən-nəslə ötürdüyü maddi və mənəvi dəyərlərin məcmusu olduğundan, bu sahədə görülən işlərin mahiyyəti də bəllidir. Təməli Heydər Əliyev tərəfindən qoyulan bu siyasət milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılmasına töhfələrini verir. Məlumdur ki, mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Sovet dövründə bütün beynəlxalq mədəni əlaqələrin Moskva tərəfindən müəyyən edilməsinə və tənzimlənməsinə baxmayaraq, özünəməxsusluğu ilə seçilən Azərbaycan incəsənəti beynəlxalq arenaya çıxa bilmiş və bu çıxış öz təcəssümünü Hollandiya, İtaliya, Portuqaliya kimi ölkələrdə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsində, Azərbaycan Dövlət Opera və Balet Teatrının Fransa və digər ölkələrdə qastrollarında tapmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca alətlərindən birinə çevrildi. Heydər Əliyev tərəfindən həyata keçirilən mədəniyyət siyasəti beynəlxalq münasibətlərdə də öz əksini tapmışdır. Bir çox xarici ölkələrlə regional və şəhərlər səviyyəsində əlaqələr nəzərə çarpacaq dərəcədə güclənmişdir.

Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətlərinin nəticəsi olaraq Azərbaycan mədəniyyəti dünya məkanında birmənalı olaraq tanınır.

Qədim zəngin maddi və mənəvi mədəniyyətə malik xalqımız, məhz Ümummilli Liderimiz Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz varlığı, mənəvi irsi, keçmişi ilə fəxr edir. Ulu Öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı kimi tarixə iz saldı. Görülən işlərin məntiqi oaraq belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb. Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçib. Bu yüksəliş dövründə mədəniyyət və incəsənətimizin aparıcı simalarına göstərilən qayğı da diqqəti çəkən məqamlardandır. Ölkəmizin ictimai-mədəni həyatında da daim fəal rol oynamış Azərbaycan teatr sənətinə dövlətimiz tərəfindən daha bir diqqətdir.

### MƏDƏNİYYƏTİN ELƏ BİR SAHƏSİ YOXDUR Kİ, DÖVLƏT PROQRAMI QƏBUL EDİLMƏSİN

Ulu Öndərin siyasətini davm etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən mədəniyyət və incəsənətimizə böyük önəm verilir.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət və mədəniyyətə göstərdiyi qayğı xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliğinə istiqamətlənib. Belə ki, mədəniyyətin elə bir sahəsi yoxdur ki, onun inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edilməsin. Teatr, kino, musiqi, milli-mənəvi dəyərlərimizin digər sahələrini əhatə edən uzunmüddətli proqramlar bu sahələrin yenidən qurulmasına imkan yaradır, ayrılan dövlət vəsaitləri hesabına mədəniyyətin madditexniki bazası möhkəmləndirilir. Təkcə paytaxtda deyil, regionlarda da mədəniyyət müəssisələrinin təmirinə diqqət artırılıb. Paytaxtımızda, region mərkəzlərində teatrlarımızın binası təmir olunur, müasir üslubda yenidənqurma işləri aparılır. Gənc Tamaşaçılar Teatrı, Rus Dram Teatrı, Milli Akademik Dram Teatrı əsaslı təmirdən sonra qapılarını tamaşaçıların üzünə açıb. Kino yaradıcılığı sahəsində yeni proqram reallaşdırılıb. Dövlət sifarişi ilə çəkilən filmlərin sayı artmaqda davam edir. Filmlərimizin qorunub saxlanıldığı Dövlət Film Fondu üçün yeni binanın tikilməsi və onun müasir avadanlıqlarla təmin olunması mənəvi sərvətimiz olan filmlərimizin qorunması, bərpası və gələcək nəsillərə ötürülməsində əhəmiyyətli rol oynayır. Bu gün ölkəmizin ən iri kinoteatrından olan Bakıdakı Nizami adına kinoteatr Avropa standartları səviyyəsindədir. Muzeylərimiz, kitabxanalarımız yenidən qurulur. M.F.Axundov adına Milli Kitabxananın fəaliyyətində informasiya texnologiyalarının tətbiqi, elektron kataloqların yaradılması, mərkəzləşmiş kitabxana sistemlərinin müasir tələblərə uyğunlaşdırılması işi sürətləndirilib. Digər kitabxanalarda da bu proseslər həyata keçirilməkdədir.

Bu gün regionlarımızda yaradılan Heydər Əliyev muzeylərinə əhali xüsusi maraq göstərir. Bu muzeylərdə Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar gənc nəslin tərbiyəsində əhəmiyyətli rol oynayır. Muzeylərimiz yenidən təmir olunur. Dövlət İncəsənət Muzeyi, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Tarix Muzeyi tamamilə yeni üslubda təmir olunub tamaşaçıların istifadəsinə verilib. Azərbaycanda yeni üslubda olan orijinal Xalça Muzeyi üçün yeni bina inşa edilib. Özünəməxsus üslubda inşa edilən bu muzey orijinal memarlıq üslubuna görə diqqəti cəlb edir.

Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə dayanır. Göründüyü kimi, Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir.

***Zümrüd BAYRAMOVA***

# Əlvida 2022, xoş gəlirsən 2023!





## PUBLİSİSTİK DÜŞÜNCƏLƏR

***2022-ci ilin son günlərindəyik. Bir il də ömür kitabımızın bir vərəqini, beləcə, çevirdi, bir il də ötdü həyatımızdan, deyirik. Bəli, ötür, ötəcəkdir də, zaman adlı köhlən atı kim saxlaya bilər ki? O çapır, gün keçir ay olur, aylarsa illəri əvəzləyir. Fəsillər dəyişir... Bahar yay, payızsa qış olur. Necə də bənzəyir insan ömrünə. Bahar gənclik, yay orta yaş, payız qocalıq, qış da ahıllıq. Ötür zaman, insan elə ki bahardan yaya boylandı, oradan da payıza bir nəzər saldı, payızın füsunkar yarpaqtökümünü izlədi, deməli, bir il də yollanır öz arxivinə. Çünki yarpaq tökümü təbiətin yaşlanması, ahıl çağının çatması, bəyaz saçlarına sığal çəkərək "bir ili də başa vurdum", deməsidir. Şair demişkən:***

*Ağacdan yarpaqlar endikcə bir-bir,*
*İl də arxasından atır yükünü.*
*Təqvimin kötüyü üstündə əsir,*
*Tək qalan son varaq - ilin son günü.*

İlin tamamında ötən günlərə nəzər salan insan sanki onun qiymətini verir. "Bu il mənim üçün uğurlumu, uğursuzmu oldu",- deyə ya onu ittiham edir, ya da əzizləyir, kaşki heç bitməzdi, - deyir. Nədənsə, ilin son günlərində həmişə ötən illərlə bağlı xatırladığımız anlar olur. Bu xatirələr sanki ömür vərəqlərinə hopubmuş kimi zamanı çatanda yenilənir, o günləri xatırladır bir daha - qayğısız uşaqlıq illərini, qışda qarın yağmasını səbrsizliklə gözlədiyimiz günləri... Axşamdan qar yağdığını görərkən səhərədək sevincdən yata bilmədiyimiz günlər xatırlanır. Səhəri gün xizəkləri götürüb sürüşməyə getməyimiz, qartopu oynamağımız, bir-birimizi yerə yıxıb qarla islatmağımız, yorulmağın nə olduğunu bilmədiyimiz günlər keçir gözlər önündən. Məktəblərdə keçirilən yeni il şənlikləri, bu şənliklərə bir ay əvvəldən hazırlaşmağımız, şeirlər əzbərləməyimiz, səhnəciklər hazırlamağımız kimi şirin xatirələr ola bilərmi? Məktəbdə böyük, təbii şam ağacının bəzədilməsi, onun ətrafa yayılan özünəməxsus ətri elə bil o illərin qoxusunu hər an burnumuza gətirir. Artıq o illərdən sonra sanki nə şam ağacları o ətri verir, nə yeni il şənlikləri o qədər gözəl, şirin olur. Həmin illərdən sonra qarın da ovaxtkı qədər yağdığını görə bilmədik. O vaxt-bu vaxt xizəklər bayıra çıxarılmadı ta, nə qar topu oynanıldı, nə islandıq, nə də üşüməyin nə olduğunu bir daha hiss etmədik. Onlar sadəcə xatirələrə hopdular, xatirələr adlı evlərə yerləşdilər və qapıları açılandan açılana sadəcə xatırlananlar oldular.

İlin bu günləri ölkəmizin iqtisadi böhranla üzləşdiyi gənclik illərimizi də gözlər önünə gətirir. Sovet ittifaqının buxovundan güc-bəla ilə azad olub, müstəqilliyimizi yenicə bərpa etdiyimiz həmin illər sosial-iqtisadi vəziyyətin könülaçan olmaması, ərzaq qıtlığı səbəbindən insanların sıxıntı içərisində yaşaması, ürəkləri istəyən kimi süfrələr aça bilməmələri, soyuq, bəzən qaranlıq evlərimiz heç vaxt unuda bilmədiyimiz günlərdir. Çünki yaxşı dərk edirdik ki, əsarət zəncirlərini öz əllərimiz ilə didibdağıdıb, parça-parça edib ayaqlar altına atmışıq, müstəqil yaşamaq əzmi ilə mübarizəyə qalxmışıq. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində müstəqillik asan əldə olunmayıb. Bu yolda qanlar da axıdılıb, övlad, ər, sevgili həsrəti də yaşanıb, aclıq, səfalət də hökm sürüb. Lakin səbir, dözüm, iradə xoş günlərin, bəxtəvər illərin müjdəsi olub.

Gəncliyimizə tuş gələn müharibə, Qarabağımızın işğal olunması, 20 Yanvar, Xocalı kimi faciələr yaşamağımız illəri bir-birnin arxasınca kədər və qüssə ilə tarixin arxivinə atırdı. Hər ötən ildən bizə qalan qəlb ağrısı idi. Sanki ilin bütün fəsilləri qış idi. Soyuq, günəşsiz həyat başımızın üstünü kəsmişdi. Həmin illər nə illərin başa çatdığının, nə də yeni ilin həyatımıza daxil olduğunun fərqində belə deyildik.

Bax, beləcə, o illərə hamı birlikdə - eyni qayğılarla yekun vururdu, hər ötən il hamı üçün eyni təəssüratlarla yadda qalırdı. Yeni ilə könülsüz salam verib, əlini sıxırdıq - bəlkə, bu yeni il hər şey düzələr - deyə. Deməli, ümidlər sarsılmırdı. Qışın şaxtası, soyuğu bu ümidləri qamçılayıb yoxa çıxara, puç edə bilmirdi.

İllər ötür, bir-birinin yerini alır. Biz isə torpaqlarımızın azad olunacağı günü gözləyir, həmin tarixdən bayramların, şənliklərin ömrümüzə qədəm qoyacağına icazə verəcəkmiş kimi o günlərin yaşanmasını gözləyirdik. İllərsə o zamanı gətirib çıxaracaqdı. Hər yola saldığımız köhnə ildə başımıza gələn müsibətləri xatırlayır, gələn yeni ildən tək istəyimiz torpaqlarımızın azad olunması olurdu. Çünki biz onlarsız tam deyildik. Qarabağ işğal altında olduğu halda, düşmənin əlində, ayaqları altında olduğu vaxt nə bayram, nə yeni il, nə şadyanalıq?..

Könlümüz açılmırdı, günahkar hesab edirdik özümüzü. Sanki xəstə övladımıza şəfa verə bilmirdik, onu müalicə etdirə, həkimə apara bilmirdik. Övladımız isə gözlərimiz önündə günü-gündən saralıb-solurdu. Bax, Qarabağ qara bəxti ilə gözlərimiz önündə bir övladımıza edə bilmədiklərimiz qədər çarəsiz dayanırdı. Bizsə ona baxır, gözümüzün yaşını ələyir, gücümüzün sadəcə buna çatmasına yanıb-yaxılırdıq.

Həqiqətən illər ömür kitabının vərəqləridir. Bu vərəqlərə nə talelər, nə qismətlər yazılır... Minlərlə soydaşımız ötən bir qərinəyədək zamanın ömür kitabının səhifələrinə yalnız göz yaşlarını hopdura bildilər, hicranı, həsrəti yazdırdılar. Qərib qəbirlərini, həsrətində olduqları yurdlarının hicranını yazdırdılar. Onlar yurd həsrəti ilə qovrulub yanıb-yaxıldıqlarını o səhifələrə həkk etdilər. "Qoy qalsın bu səhifələrdə, qalsın ki, qonşu dediklərimizin başımıza gətirdikləri oyunları gələcək nəsillər də bu səhifələrdən oxusunlar, öyrənsinlər. Çünki keçmişini bilməyən gələcəyinin də qədrini bilə bilməz", - söylədilər.

İllərsə ötdükcə bizləri torpaqlarımıza yaxınlaşdırırdı. Gənclik çağlarımızda ölkəmizdə şahidi olduğumuz iqtisadi böhran arxada qalırdı. Ölkəmiz gündən-günə inkişaf edir, müstəqil bir yolda müstəqil addımlarla irəliyə hərəkət edirdi. Bu inkişaf isə ordumuzun güclənməsi, ordumuzun güclənməsi isə torpaqlarımızın geri qaytarılacağı günü yaxınlaşdırırdı.

Dövlətimizin başçısının ötən 19 ildə bütün bayramlarda xalqımıza müraciətlərini xatırlayırıq. Bu müraciətlər tək bayram münasibətilə xalqa təbrik deyildi, həm də onlara verilən böyük bir ümid idi. Ağrılı yaralarımızın sağalacağı günü səbirlə gözləməyimizə çağırış idi. Bu müraciətlər xalqın liderinin onun arzularını bir gün reallaşdıracağına verdiyi söz idi.

2020-ci il... Zəfər, qələbə ilimiz, torpaqlarımızın işğaldan azad olunan ili. Minlərlə övladımızın şəhid, yüzlərlə övladımızın qazi olması hesabına qazandığımız qürur ilimiz. Sən demə 2019 bizim Qarabağsız qarşıladığımız son ilimiz imiş. 2019-cu il dövlətimizin başçısının 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində işğal altında olan torpaqlarımızdan sonuncu dəfə bəhs etməsi ili idi. Qarşıdakı 2020-ci il Zəfəri ilə ömrümüzə-günümüzə günəşli günlər gətirdi. 2020 bizə şərəfimizi, ləyaqətimizi qaytardı. Hər dəfə Qarabağdan söhbət düşəndə aşağı dikdiyimiz başımızı yuxarı qaldırmağı bəxş etdi.

Ali Baş Komandanımız cənab İlham Əliyevin 17 il ərzində apardığı böyük siyasət nəticəsində 2020-ci ilin tarixinə Zəfər sözünü yaza bildik. Ulu öndərimiz Heydər Əliyevin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı vəsiyyətini reallaşdıra bildik. Xalqımız başını dik tutdu. Birliyimiz, həmrəyliyimizlə, böyük sərkərdəmizin arxasında möhkəm dayanmağımızla qələbəni qazana bildik. Biz Qarabağımızı xilas etdik. Onu anası Azərbaycana qovuşdura bildik. Qarabağın baş tacı, döyünən ürəyi Şuşanı azad etdik. Şuşa qəhrəman, igid övladlarımızın əlləri, dağa-daşa sürtünən sinələri, böyük əzmləri ilə geri alındı. Böyük bir hərbi əməliyyatla Şuşa tarixin səhifələrinə Azərbaycan ordusunun möhtəşəmliyini yazdı.

Qarabağda, budur, iki ildir başlanan quruculuq, bərpa işləri sanki hər gün həyatımıza bayram, şadyanalıq kimi xoş anlar qatır. Düşünəndə ki, soydaşlarımız öz ata-baba yurdlarına, ev-eşiklərinə qayıdırlar bu, bizim üçün hər günü bayram edir.

Artıq 2020-ci il də daxil olmaqla üçüncü yeni ildir ki, onu könlüaçıq qarşılayırıq. Çünki qəlbimizdən dağ boyda bir düyün açılıb, atılıb. Bizim hicranımız üzərində vüsal qələbə çalıb. Bizim torpaqlarımızn işğalı üzərində azadlıq qələbə çalıb. Soydaşlarımızın məcburi köçkünlükləri üzərində yurda qayıdış qələbə çalıb.

İndi qış fəslidir. Lakin Qarabağ artıq iki ildir ki, bir fəsil yaşayır-bahar fəslini. Sanki baharın gözəlliyindən doymur, onun yerini başqa fəsillərin almasını istəmir. Çünki 30 il idi ki, baharı qovmuşdu, "get, azadlığım gələndə gələrsən",- demişdi. Gülünü-çiçəyini sinəsindən yolub atmışdı. "Gedin, azadlığım gələndə siz də gəlib könlümü bəzəyərsiniz",- demişdi. Allı-güllü yaylığını çıxarıb başına qara bir şal salmışdı. Günəşi qovmuşdu, dumana bürünmüşdü, "mən günəşi bir də azad olunanda qarşılayacağam",- demişdi.

Budur, qışdır. Lakin Qarabağda yazdır, bahardır. Üç minədək şəhidimiz, yüzlərlə qazimiz bu yurd yerimizə baharı gətirib. Qarabağ allı-güllü donunu geyinib, başından qara şalını açıb, qırmızı bağlayıb. Bu yerlərə artıq günəş doğur və o günəş heç qüruba enmir. Enməyəcək də. Çünki bu günəş əbədiyyən doğub.

İlin son günü... Son 30 ili düşünürsən... Biz nə illər yola salmışıq, nə illər qarşılamışıq. Biz hansı tarixlərlə, hadisələrlə bir 365-i başa vurub, digər 365-i qarşılamışıq. Acısı şirinindən qat-qat çox illəri... Şükürlər olsun ki, artıq o illər tarixin arxivinə yollandı. Üçüncü yeni ildir ki, qəlbimiz açıq, başımız dikdir. Bizim bu ildən yeni ilə danışmalı nələrimiz var...

"Şuşa ili" 2022-yə əlvida deyir, 2023-cü ili- "Heydər Əliyev ili" ni qarşılayırıq. Böyük şəxsiyyətin 100 illiyinin işığında tarixin bu xalqa bəxş etdiyi dahi insanın Azərbaycanın müstəqilliyində, inkişafında, tərəqqisində, dünyaya tanınmasında böyük əməyindən, ümumilikdə Azərbaycanla birgə döyünən bir ürəyin həyat və fəaliyyətindən söhbət açmaq üçün 2023-cü ilə yollanırıq. Heydər Əliyev siyasətinin uğurla və layiqincə davam etdirildiyi ölkəmizdə qarşıdakı yeni ildə yeni inkişaf və tərəqqini müşahidə etməyə yollanırıq. Qarabağımızın yenidən qurulması işlərinin davamını seyr etməyə yollanırıq. Zəngəzur dəhlizinin açılmasını, Azərbaycanın bir parçası olan Naxçıvana uzanan yollarla bu qədim diyarı anası Azərbaycanın qoynuna sarılmağa yollanırıq. Ümumilikdə bu gün dünyanın bəhs etdiyi ölkəmizdə daha yeni-yeni uğurları izləməyə yollanırıq...

Bütün bu gözəlliklərin fonunda düşünürsən ki, nə yaxşı ki ötən illər yaşanıb, müstəqil olmuşuq. Nə yaxşı ki ötən illər yaşanıb, qədirbilən olmuşuq. Gəl, 2023, gəl, vərəqlə ömür kitabımızı. Gəl, əl-ələ verək, həmrəy olaq, yeni bir tarix yazmağa başlayaq. Şair demişkən:

*Qəlbimizin odundan*
*Alovlansın hər ocaq.*
*Biz nə zaman bir olsaq,*
*O gün bayram olacaq*

Əlvida 2022, xoş gəldin 2023! Qədəmlərin uğurlu olsun. Gəl, yeni il, gəl, aç ömür kitabımızın 2023-cu səhifəsini, yaz ora şairin bu misralarını:

*Ötür illər, fəsillər,*
*Günlər dönüb aylanır.*
*Ömrümüzə bu axşam*
*Bir gələcək boylanır*

***Mətanət Məmmədova***




# Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüş Türkiyə mediasının gündəmində










**Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası dövlətimizin başçısının görüşdəki çıxışından mühüm məqamları Türkiyə ictimaiyyətinin diqqətinə təqdim edib. Məlumat verilib ki, Azərbaycanın milli və dövlətçilik maraqlarının müdafiəsinin qətiyyətlə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev sözügedən görüşdəki çıxışı ilə keçmiş SSRİ-nin süqutu illərində Ermənistandan zorla qovulan Azərbaycan türklərinin hüquqlarının pozulmasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb.

Azərbaycanın qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, ekofəalların dekabrın 12-dən etibarən Laçın-Xankəndi yolunda Qarabağdakı təbii sərvətlərimizin qanunsuz şəkildə istismarına qarşı dinc etiraz aksiyası keçirdiklərini diqqətə çatdıran Türkiyə KİV-ləri yazır ki, Prezident İlham Əliyev Azərbaycanın öz haqlı mübarizəsindən və tələblərindən vaz keçməyəcəyini qətiyyətlə ifadə edib. Azərbaycanın təbii sərvətlərinə qarşı talançılıq yolverilməz beynəlxalq cinayətdir. Bu talançılıq və qanunsuz istismar dərhal dayandırılmalıdır.

Mövzu barədə geniş məlumatlarla Anadolu və İHA xəbər agentliklərinin, "TRT Haber", "TRT Avaz" və digər telekanalların, "Yeni Akit", "Yeni şafak", "Star" və sair qəzetlərin saytlarında tanış olmaq mümkündür.

# Mərkəzi Gömrük Hospitalında tədbir keçirilib



29 dekabr 2022-ci il tarixində Mərkəzi Gömrük Hospitalında 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilmiş tədbir keçirilib. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov iclası açaraq, tədbir iştirakçılarını qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib. İdarə rəisi Ceyhun Məmmədov bildirib ki, Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyev həmrəylik gününü təsis etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə müvəffəq olmuşdur.

İdarə rəisi Ceyhun Məmmədov çıxışında qeyd edib ki, xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş Prezident İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Cənab Prezidentin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi Elmi-Tədrisi və Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə çıxışını 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün təsis edilməsində öncül olan Ümummilli Lider Heydər Əliyevin sitatı ilə başlayıb və daha sonra bu günün təsis edilməsinin tarixi, əhəmiyyəti və 44 günlük müharibədə Azərbaycan xalqının həmrəylik göstərməsi barədə ətraflı məlumat verib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım Tibbi Xidmət İdarəsinin İnzibati İdarəetmənin təşkili şöbəsinin, Tibbi Xidmət İdarəsinin Sanitar Karantin Xidmətinin 2022-ci ildə fəaliyyəti, o cümlədən DGK sistemində təbliğat və təşviqat işlərində "İdeoloji prioritetlər"i rəhbər tutaraq Mərkəzi Gömrük Hospitalında keçirilmiş tədbirlər, görülən işlər, təlimlər və qarşıya qoyulmuş vəzifələr barədə çıxış edib.



Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev Tibbi Xidmət İdarəsinin Elmi-Tədrisi Tədris Mərkəzinin 2022-ci ildə fəaliyyəti, həyata keçirdiyi elmi tədbirlər, Mərkəzi Gömrük Hospitalında həyata keçirilən müalicə-müayinə işlərinin statistikası, Mərkəzi Gömrük Hospitalında DGK əməkdaşları və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları üçün keçirilən narkotik və psixotrop maddələrin skrininq müayinəsi barədə məlumat verib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi, Mərkəzi Gömrük Hospitalı, Sanitar Karantin Xidməti, Elmi-Tədrisi və Tədris Mərkəzinin fəaliyyətini 2022-ci il üçün uğurlu olduğunu qeyd edib və 2023-cü ildə daha böyük nailiyyətlərə nail olmağı arzulayıb. Tədbirin sonunda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının 2022-ci ildə fəaliyyətini əks etdirən slayd-şou və Mərkəzi Gömrük Hospitalının həkimləriin 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təbriklərindən ibarət çarx nümayiş olunub.

# "Köhnə təfəkkürlü idarəçilik modeli bugünkü reallıqlara uyğun deyil"



"Ümumiyyətlə, 2019-cu ildən başlayaraq cənab Prezidentin həyata keçirdiyi genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin bütün sahələrini əhatə edirdi. Xüsusilə gənc kadrların irəli çəkilməsi, müxtəlif səriştələrə və kompetensiyalara malik olan şəxslərə yüksək vəzifələr verilməsi tendensiyası formalaşdı. Həm yerli icra hakimiyyəti, həm mərkəzi icra hakimiyyəti, həm də icra, məhkəmə və qanunvericilik sistemində bir sıra dəyişikliklər oldu". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, 2020-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsində müşahidə edildi ki, gənc millət vəkilləri də xalqın etimadını qazandılar: "Son dövrlər Vətən müharibəsindən sonrakı reallıqlar kontekstində Prezidentin Xüsusi nümayəndəlik institutu təsis olundu. Şuşada, Zəngilanda və Qarabağın digər iqtisadi zonalarında, eləcə də son zamanlarda Naxçıvan Muxtar Respublikasında ölkə başçısının xüsusi nümayəndələri təyin olunub və bu institut özünü qabaqcıl şəkildə göstərib. Düşünürəm ki, bunun dövlət idarəçiliyinə müsbət təsirləri olacaq. Ümumilikdə gəncləşmə siyasəti həm də dövrün tələbidir".

Politoloq sözlərinə davam edərək bildirib ki, yeni nəsil Azərbaycanı inkişafa, iqtisadi rifaha doğru aparacaq: "Respondetlərdən keçirdiyimiz sorğulardan da görürük ki, ictimai rəydə daha çox gəncləşmə siyasətinə meyil var və onların qarşısına böyük tələblər, böyük gözləntilər qoyulub. Artıq köhnə təfəkkürlü idarəçilik modeli bugünkü reallıqlarla uyğunluq təşkil etmir. Daha çox müasir inkişaf strategiyalarını bilən, dövrün nəbzini tutan gənclərin dövlətin idarəçiliyində uğur qazanmaq ehtimalı var. Həmçinin, bir sıra stimullaşdırıcı tədbirlər də həyata keçirilir. Bu baxımdan "Yüksəliş" müsabiqəsini qeyd edə bilərik. Bu müsabiqənin qəlibləri də yüksək vəzifələrə təyin olunurlar. Ümumilikdə bu işə kompleks yanaşmaq lazımdır. Müasir biliklərə malik olan, dünyanın qabaqcıl universitetlərində yüksək təhsil almış şəxslərin dövlətimizə töhfə verməsi üçün şərait yaratmalıyıq. Selektiv yanaşma, qohumbazlıq və digər xoşagəlməz hallarla kadrların irəli çəkilməsi yolverilməzdir. Ümid edirəm ki, irəli çəkilən gənclər Azərbaycanı daha çox inkişaf etdirəcək".

*Ləman Əlizadə*




# Erməni vəhşiliyi bəşəriyyətin varlığına təhlükədir





*Dünya düzəni o zaman pozulmağa başladı ki, əsasən, Avropada yeni güc mərkəzləri formalaşdı. Əsasən Almaniyanın, Fransanın və Rusiyanın müxtəlif vasitələrlə hərbi-siyasi nöqteyi-nəzərdən hegemon dövlətə çevrilmələri bəşəriyyət üçün uzun onilliklər aradan qaldırılması çətin olan problemlər gətirdi. Rusiya- Osmanlı müharibələrində birincilərin hərbi uğur əldə etməsi yeni geosiyasi mənzərə yaratmış oldu.*

Rusiya çarizmi Cənubi Qafqazda möhkəmlənmək və özünün gələcək işğalçılıq planlarını reallaşdırmaqdan ötrü satqın və xəyanətkar erməniləri az bir vaxt ərzində hazırkı molla rejiminin nəzarət etdiyi torpaqlardan, eləcə də Osmalı imperiyası ərazisindən Azərbaycan ərazilərinə köçürməyə başladı. Ermənilərin Osmanlı torpaqlarından Cənubi Qafqaza köçürülməsi ilə bölgədə terrorun əsası qoyuldu. Ermənilərin Azərbaycan ərazisində məskunlaşması prosesi 1441-ci ildən daha geniş vüsət aldı. Gəlmə ermənilər ərazilərdə məskunlaşdıqca azərbaycanlıların mal-mülklərinə göz dikməyə başladılar. Matendaranda qorunan 1687-ci ilə aid tarixi sənəddə göstərilir ki, ermənilər azərbaycanlılara məxsus olan torpaqları ya satın alır, ya rüşvət verib alır, ya da zorla ələ keçirirdilər.

### Ermənilərin gəlmə olduğunu özləri də təsdiq edirlər

Tarixi qaynaqlara istinadən qeyd etmək olar ki, ermənilər bu ərazilərə köçürülüblər. Bu faktları xristian qaynaqları ilə yanaşı elə erməni mənbələrində təsdiqləyir. 1828-ci il martın 20-də imzalanan Türkmənçay müqaviləsinin ertəsi günü Rus çarı I Nikolay "erməni vilayəti yaradılması" barədə fərman verdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə, hazırkı molla rejimi müharibə vaxtı öz dövlətinə xəyanət edərək ruslara qulluq etmiş ermənilərin Rusiya işğalı və tabeliyində olan torpaqlara köçürülməsinə əngəl törətməməli idi. 1827-ci ilin mayında rus generalı Paskeviçin xüsusi tələbnaməsi əsasında ermənilər arasında nüfuz sahibi olan polkovnik Lazarev (Qazaros Lazaryan) köçürülmə işlərinə rəhbərlik etmək üçün Təbrizə komendant təyin edildi. Rus ordularının Təbrizə basqını zamanı (13 oktyabr) Lazerevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordusunun üzünə açdılar. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı.1828-ci il dekabrın 24-də Lazarevin Paskeviçe yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il fevralın 26-da başlamış və iyunun 11-də başa çatmışdı. Lazarev 1828-ci il martın 9-da Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdi. 1828-ci il mayın 26-da Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda isə bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Artıq Qarabağda 279, İrəvan vilayətində isə 948 ailə məskunlaşdırılmışdır. Polkovnik Lazarevin vədinə əsasən köçürülən ailələrin sayı 5 minə çatdırılmışdır. İ.Şopenin yazdığına görə, İrandan köçürülən ermənilərdən yalnız 1715 nəfər İrəvan şəhərinin özündə, 1110 nəfər Naxçıvan şəhərində və 482 nəfər isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 ailə (23588 nəfər), Naxşıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Lazarevin hesabatında məlum olur ki, üç ay yarım ərzində İran ərazisindən 8249 xristian-erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür ki, bu da ən azı 40 min nəfər demək idi. Həmin illərdə Rusiya dövlətinin xəzinəsindən 14 min manat qızıl və 400 min manat gümüş pul xərclənmişdir. Bununla yanaşı, rus təqiqatçısı N.Smirnov İrandan 90 min erməninin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığını yazır. Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə yeni vətən yaratmaq məqsədi ilə köçürülmüşdü. Bu işləri həyata keçirməkdə xüsusi canfəşanlıq göstərən hərbçilər və din xadimləri rus çarizmi tərəfindən mükafatlandırılırdılar.



## Qısa müddətdə 100 mindən çox erməni Azərbaycan torpaqlarına köçürülmüşdür

Rus çarizmi bölgənin işğalının genişləndirilməsi üçün 1828-ci il iyunun 23-də Qars qalası işğal edildi. Rus qoşunları iyunun 24-də Axalkalakini avqustun 15-də Axıskanı, 22-də Ərdahanı, 28-də isə Bəyazidi işğal etdilər. 1829-cu ilin yazında müharibənin yenidən alovlanması nəticəsində rus qoşunları Ərzurumu, daha sonra Muşu, Oltunu və Bayburtu işğal etdilər. İrəvan xanlığından öz ata-baba yurdlarından didərgin salınan azərbaycanlılar Şərqi Anadoluda sığınacaq tapmışdılar. Rus qoşunlarının Şərqi Anadoluya hücumları zamanı qırğınlara və yenidən bu ərazidən köçkün halına düşməyə düçar olan yenə də azərbaycanlılar idi. Onlar bu dəfə də, əsasən, Türkiyənin içərilərinə köçməyə məcbur oldular. 1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafında İstanbula irəliləyərkən II Sultan Mahmudun Rusiya dövlətinə barışıq təklif etdi. Bu addım 1829-cu il sentyabrın 2-də Ədirnə müqaviləsinin bağlanması ilə nəticələndi. Axalkələk qalası və Axıska şəhəri Rusiyaya birləşdirildi. Ruslar tərəfindən işğal edilmiş Qars, Trabzon, Bəyazid və Ərzurum paşalıqları isə Türkiyəyə qaytarıldı. Ədirnə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya tabeliyinə keçmək hüququ verilmişdir. Türkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin Türkiyə ilə sərhədboyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərinin Gürcüstanda və "erməni vilayətində" yerləşdirilməsinə icazə istədi. 1829-cu il noyabrın 18-də hərbi nazir Çernişev Paskeviçə çar I Nikolayın onun təklifini bəyəndiyini bildirdi. Türkiyənin Qars və onun ətrafında köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Alagöz dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Rus general-mayoru Bereman Qarsdan Gümrüyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirirdi. İrəvan yaxınlığında Sərdərabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi. Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: İrəvan quberniyasından yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb, 1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər. 1830-cu il yanvarın 22-də Paskeviçin Çernişevə verdiyi məlumata görə, Qars və ətraf ərazilərdən köçən 2500 erməni ailəsi onun sərəncamına əsasən, yaşadıqları yerin iqliminə uyğun olan Alagöz dağı ətrafında, Pəmbək distansiyadakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Türkiyədən köçürülən ermənilər Axıska, Pəmbək-Şorəyel və erməni vilayətində yerləşdirildi. Talış mahalı, Göyçə gölü ətrafı və Baş Abaranna 14044 erməni ailəsi köçürülmüşdü. Ərzurumdan köçürülən 7228 erməni ailəsindən 500-ü, eləcə də Ərdahandan 67 erməni ailəsi Axıska paşalığı ərazisində, 1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında, qalan 1305 ailə isə Pəmbək və Şorəyel distensiyalarında yerləşdirilmişdi. Hesablama komissiyasının sayına görə Osmanlı dövləti torpaqlarından 84 min nəfərdən artıq erməni və yunan köçürüldüyü məlum olur. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviçin adına verilmiş əlahəzrətin buyruğunda rus dövləti tərəfindən Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380 min gümüş pulun ayrıldığı bildirildi. İ.Şopenin apardığı siyahıya almanın nəticələrinə görə 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra "erməni vilayətinə" Türkiyədən 21666 nəfər (3862 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdü köçürülmüşdü. Rusiya imperatorunun fərmanı ilə "erməni vilayəti" yarandığı vaxt İrəvan əyalətində İrəvan, Sərdərabad, Şərur və Sürməli dairələri yaradıldı. Mənbələr, arxiv materiallarının saxlandığı Matendaranda sənədlərə istinad edən N.A.Tavakalyan İrandan köçürülən ermənilərin sayının 8510 nəfər olduğunu qeyd edirlər. 1834-cü ilin kameral təsvirinə görə bütövlükdə İrəvan əyalətində 22336 ailə var idi ki, bunun da 65300 nəfərini kişi cinsi təşkil edirdi. Bunların 29690 nəfəri tatar, yəni Azərbaycan türkləri, 10350 nəfəri əvvəllər köşürülmüş ermənilər və 24255 nəfəri İran və Türkiyədən yenicə köçürülən yezidi kürdləri, az qismi isə boşa adlanan qaraçılardan ibarət idi. 20 cilddən ibarət həmin siyahıya alınmanın nəticələri İ.Şopenin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" adlı əsərində verilmişdi. Bu siyahıya alınmaya görə, müharibədən sonra erməni vilayətində mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Siyahıya alınmanın nəticələrinə görə köçürülməyən vilayətlərdə 81749 nəfər müsəlman, 25151 nəfər erməni qeydə alınmışdı. 1849-cu ildə İrəvan Gümrü, Naxçıvan, Ordubad və Göyçə mahalının Şərq hissəsindən ibarət İrəvan quberniyası təşkil edildi. Yalnız quberniyanın mövcudluğuna 1917-ci ildə son qoyuldu.





## Ermənistanda 1548 Azərbaycan mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir

XIX əsrin 90-cı illərində Türkiyə dövlətində baş verən erməni qiyamlarının yatırılmasından sonra daha 400 minə yaxın erməni yenə də Cənubi Qafqaza -Azərbaycan torpaqlarına köçdü. N.Şavrov qeyd edirdi ki, XIX əsrin əvvəlində Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənilərin bir milyondan çoxu yerli əhali deyil, onları bura biz köçürüb gətirmişik. Bu azmış kimi Azərbaycan toponimləri erməniləşdirildi. Yəni ermənilər özlərinə saxta tarix yaradırdılar. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra 1935-ci ilədək 190-dan artıq azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Rəsmi addəyişmə əməliyyatları 1935, 1938, 1939, 1940, 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1969, 1977, 1978, 1980-cı illərdə Ermənistan SSR Ali Sovetinin fərmanları əsasında həyata keçirilmişdir. 1548 Azərbaycan mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir. 1918-1987-ci illərdə bu torpaqlarda 254 azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (əhalisi soyqırıma məruz qalmaqla, deportasiya edilməklə və s.) xəritədən tamamilə silinmişdir. Azərbaycanlıların 1948-1953-cü illər deportasiyasından sonra 60-dan çox yaşayış məntəqələrin adları dəyişdirilmişdir. Ermənistan Ali Sovetinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə azərbaycanlılara məxsus daha 90 məntəqənin adı erməni toponimləri ilə əvəz olunmuşdur. Demək olar ki, ermənilər və onların Moskvadakı havadarları Azərbaycana qarşı gələcəkdə yeni ərazi iddiası irəli sürmək üçün müxtəlif məkrli planlar hazırlamışlar. 1988-ci ildən Ermənistan-Azərbaycan münaqişəsinin bünövrəsi qoyularkən Moskvada hazırlanmış məkrli plan işə düşdü. Nəticədə torpaqlarımız işğal edildi, 1 milyondan çox insan öz doğma yurd-yuvasından didərgin salındı. 30 ildən sonra Qarabağımızın işğalına son qoyuldu. Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz torpaqlarımızı yağı düşməndən azad edib, bölgəyə yeni həyat gətirdi.




**İ.ƏLİYEV**

# Həmrəylik günü diasporumuzun ən böyük bayramıdır

***31 ildir ki, Azərbaycanda və dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar bu tarixi əlamətdar bayramlardan biri kimi qarşılayırlar. 2020-ci ildən etibarən isə Milli Həmrəylik Günü tamamilə fərqli, daha yüksək əhvali-ruhiyyə və coşqu ilə qeyd olunur. Çünki artıq torpaqlarımız işğaldan azad olunub. Vətən müharibəsindəki tarixi qələbədə xalqımızın milli həmrəyliyi də böyük rol oynayıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən Ulu Öndər, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qəbul etdiyi qərar dünyanın ayrı-ayrı guşələrində yaşayan azərbaycanlıların ümumi vətənimizin inkişafı, çiçəklənməsi naminə bir araya gələrək vahid azərbaycançılıq ideologiyası ətrafında birləşmələrində misilsiz rol oynamışdır.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli xahişi və tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra beynəlxalq əlaqələrin möhkəmləndirilməsi baxımından həmvətənlərimizin arasında sıx, monolit birliyə nail olunmasını dövlətimizin qarşısında duran önəmli siyasi prioritetlərdən biri kimi müəyyən etmişdir. Ümummilli Liderimiz dünya azərbaycanlılarının dəstəyini alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlılarını qəlbən sevindirir. Azərbaycanın Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrinə səpələnmiş həmvətənlərimizi daha da qürurlandırır. Azərbaycan dövlətinin güclənməsi soydaşlarımızın xaricdəki diaspor təşkilatlarının fəaliyyətinə də müsbət təsir edir. Odur ki, dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız Azərbaycanın müstəqil siyasət yeritməsindən, dünya birliyində mövqelərini daha da möhkəmləndirməsindən, eyni zamanda həyata keçirilən diaspor siyasətindən məmnunluq duyurlar.



der xarici ölkələrə səfəri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşər, problemləri, qarşılaşdıqları çətinliklərlə tanış olar, onların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görər, milli-mənəvi dəyərlərimizin qorunmasının, onların yad, yabançı təsirlərdən hifz olunmasının, adət - ənənələrimizə sevgi, məhəbbət ilə yanaşılmasının xüsusi önəm kəsb etdiyini tövsiyə edər, bu baxımdan uğur qazanmağın yeganə yolunun milli birlikdən, həmrəylikdən keçdiyini vurğulayardı.

Ulu Öndərin ideyalarını ən yüksək səviyyədə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl, məqsədyönlü siyasət, göstərilən hərtərəfli diqqət və qayğı sayəsində Azərbaycanın diaspor təşkilatları daha mütəşəkkil şəkildə fəaliyyət göstərir, qarşıya qoyulan vəzifələrin həlli istiqamətində uğurların daha da artırılar. Dövlətimizin başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, hər zaman ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə böyük töhfələr verir. Məhz bu siyasətin məntiqi nəticəsi olaraq Prezident İlham Əliyev daim 50 milyon azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası, Azərbaycan həqiqətlərinin dünyada getdikcə yaxından eşidilməsidir.

Bakıda dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin güclənməsinə əlverişli zəmin yaratmaqla yanaşı, milli həmrəyliyə və yekdilliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildiyini nümayiş etdirib. Məhz bu siyasətin məntiqi nəticəsi olaraq 2022-ci ilin aprel ayının 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V qurultayı keçirilmişdir. Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etmişdir. Qurultayda çıxış edən dövlət başçımız bildirmişdir ki, Azərbaycan dövləti öz fəaliyyətində həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanır, təmaslar qurur. Bütün bu tədbirlər milli-mənəvi, intellektual potensialına görə dünyanın böyük xalqları ilə bir sırada dayanan xalqımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməsinə, tarix səhnəsində mühüm rol oynayan mütəşəkkil qüvvə kimi formalaşmasına güclü təkan verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 19 ildə Azərbaycanın inkişaf yolunda ardıcıl qazandığı uğurlar bütün dünya azərbaycanlı...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, güclü iradəsi, yenilməz qətiyyəti, şanlı ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığı, xalqımızın öz rəhbəri ətrafında yumruq kimi birləşməsi nəticəsində möhtəşəm qələbəyə nail olundu. 30 illik Vətən, yurd həsrətinə, nisgilinə son qoyan bu tarixi zəfərin ölçüyəgəlməz sevincini, fərəhini xalqımız bu gün də yaşamaqdadır. Qürur hissi keçiririk ki, bu böyük qələbənin qazanılmasına həmyerlilərimiz də özlərinin layiqli töhfələrini vermişlər. Əsas məsələlərdən biri də odur ki, bu müharibədə cəmiyyət Prezident İlham Əliyevin ətrafında sıx səfərbər oldu. Bu, həm milli həmrəyliyimizin, həm də xalqımızın öz rəhbərinə olan yüksək ehtiram və inamının təcəssümü idi. Dövlətimizin başçısının əzmkarlığı, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi qətiyyət hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən və dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı 44 günlük müharibədə milli həmrəylik nümayiş etdirdi.

***Fəxrəddin Vəliyev,***
***YAP Şəmkir rayon***
***Təşkilatının sədri***



İLHAM

# *Erməni vandalizmində BMT də günahkardır*

**Erməni vandalizmi və barbarlığı haqqında çox danışılıb və qalaq-qalaq kitablar, səhifə-səhifə məqalələr yazılıb. Dünyanın tərəqqipərvər insanları, elm adamları, ziyalıları erməni vəhşiliyi barədə fikirlər səsləndirib, faktlar, sübutlar göstəriblər. Nəticəsi isə olmayıb. Çünki erməni terrorçu və vəhşi toplum olaraq yaranıb. Onların qəddar əməlləri 30 ilə yaxın müddətdə işğal altında olmuş Azərbaycanın ərazilərində özünü göstərib. İşğal edilən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər və digər ərazilərimizdə yaşı min illərə bərabər olan dini, tarixi, mədəni abidələrin, məscidlərin ermənilər tərəfindən dağıdılması, Azərbaycan xalqının milli-mənəvi yaddaşına zərbə vurmaq, bəşəriyyətə düşmənçilik deməkdir. Törədilən vandallıq həm də onu göstərir ki, erməni faşistləri dini, mədəni və tarixi dəyərlərə böyük nifrət bəsləyirlər. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, erməni faşistləri işğal zamanı Azərbaycana məxsus onlarla tarixi abidəni, məscid və mədəni irs nümunələrini yer üzündən siliblər. Bəzi nümunə kimi saxladıqları məscidlərdə isə donuz və mal-qara saxlayıblar. Misal olaraq, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan cümə məscidlərində mal-qara saxlanılması üçün tövlə kimi istifadə edilməsini, Şuşa şəhərindəki Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli məscidlərinin dağıdılmasını göstərmək olar. Bu kimi ürəkağrıdıcı faktlar ümumilikdə müsəlman dünyasına, dini dəyərlərə hörmətsizlikdir.**

Müvafiq dövlət qurumlarından aldığımız məlumata görə, işğal altındakı Azərbaycan torpaqlarında 403 tarixi-dini abidələr olub ki, onlardan da 67-si məscid (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8), 144-ü məbəd, 192-si ziyarətgahdır. İşğal ərazisində yerləşmiş 67 məscidin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yaşı 300-350 min olan ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları vandallığa məruz qalıb. Həmçinin, qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli, dini, tarixi dəyərlərimiz məhv edilib. Bütün bunlar "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının tələblərinin erməni vəhşiləri tərəfindən kobud şəkildə pozulması deməkdir. Ermənistanın 30 il ərzində Azərbaycanın işğal edilən ərazilərində törətdiyi vəhşiliklərə sentyabrın 27-dən sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə güclü və qüdrətli Azərbaycan ordusu son qoydu və bununla da qaranlığa bürünən torpaqlarımıza günəş doğdu.

Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Cəbrayıl, Füzuli, Ağdam şəhərlərinə və özündə min illik tarix yaşadan Xudafərin körpüsünü ziyarət etmələri milli varlığımıza qürurlu anlar yaşatdı. Ağdam şəhərində olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yerin nəmli və soyuq olmasına baxmayaraq, ayaqyalın məscidə daxil olmaları onların milli dəyərlərimizə böyük dəyər verdiklərini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev Ağdam məscidinə Məkkədən gətirdiyi "Qurani-Kərim"i bağışlayaraq demişdir: "Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək, bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam".

Bir sözlə, Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz erməni barbarlarından torpaqlarımızı azad etdi. Biz artıq Cəbrayıldayıq, Füzulidəyik, Zəngilandayıq, Qubadlıdayıq, Şuşadayıq, Ağdamdayıq, Kəlbəcərdəyik, bir sözlə, biz Qarabağdayıq. Əminəm ki, dünya birliyi erməni vəhşiliyindən və vandallığından kifayət qədər məlumatlıdır. Bu baxımdan, Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan dünya birliyi, demokratik düşüncəli dünya xalqları erməni vandallarının ciddi şəkildə cəzalandırılması üçün öz səslərini qaldıracaqlar.

**_Fransa Cənubi Qafqaza və Qarabağa müdaxilə etmək üçün yeni vasitələrə əl atır. Bunun üçün rəsmi Paris addımbaşı ölkəmizə qarşı təxribat xarakterli siyasəti və müxtəlif təzyiq cəhdləri ilə yadda qalır. Bu yaxınlarda bu Fransa Prezidenti Emmanuel Makron beynəlxalq humanitar təşkilatların Qarabağ ərazisinə göndərilməsi üçün çağırış edib. Korsikada baş verənləri görməzliyə vuraraq öz vətəndaşlarının deyil, Qarabağda "zavallı erməni" separatçılarının qayğısına qalması Makronun ermənipərəstliyinin bariz nümunəsidir._**



# Öz gözündə tiri görmür...

## *Beləsinə nə ad verəsən?*



Fransa uzun illər ATƏT-in artıq dəfn edilmiş Minsk qrupunun həmsədrlərindən biri kimi keçmiş Ermənistan-Azərbaycan münaqişəsində ermənipərəst mövqeyini hər nə qədər gizlətməyə və pərdələməyə çalışsa da 44 günlük Vətən müharibəsində və sonrakı vaxtlarda əsl siması üzə çıxdı. Məhz həm də Fransanın günahı ucbatından bu münaqişənin sülh yolu ilə həlli dalana dirəndi və nizamlama prosesi pozuldu. Fransanın Xankəndi-Şuşa yolunda ekoaktivistlərin dinc aksiyasına potensial imkan kimi baxaraq sərgilədiyi "humanitar böhran" şousu da növbəti həmlədir. Qarabağın ermənilər yaşayan hissəsində heç bir humanitar problemin olmadığını bilə-bilə yenə yalanlar uydurаraq Bakıya təzyiq vasitəsi ilə nəyisə əldə etmək, hansısa güzəştlərə nail olmaq absurddur.

Aydın məsələdir ki, Qarabağda yaşayan ermənilərin heç bir humanitar problemi yoxdur. Məsələ isə çox sadədir. Azərbaycan ekoloqları tələb edirlər ki, Qarabağ ərazisində olan yeraltı sərvətlər Azərbaycan qanunları çərçivəsində istifadə olunmalıdır. Heç kəs kənardan gəlib bu təbii sərvətləri qeyri-qanuni istismar edə bilməz. Bu tələblərin heç biri Qarabağ ərazisində yaşayan ermənilərin hər hansı humanitar problemlərlə rastlaşmasına səbəb ola bilməz. Azərbaycan tərəfi dəfələrlə açıq-aydın bəyan edib ki, ermənilər Laçın-Xankəndi yolundan istifadə edə, lazım olan zaman humanitar yüklərlə gəlib oradan keçə bilərlər. Amma oraya başqa dövlətlərin vətəndaşlarının müxtəlif təxribat xarakterli məqsədlər üçün gəlib keçməsinin qarşısı alınacaq, hər hansı bir silah-sursatın, minaların gəlib keçməsinə imkan yaradılmayacaq. Bu yol ancaq humanitar məqsədlər üçün istifadə ediləcək. Bunun sübutu kimi humanitar yüklərin keçirilməsinə şərait yaradıldığını dəfələrlə görmüşük. Azərbaycanın ermənilərin yaşadıqları ərazilərində humanitar böhranla bağlı iddialar reallıqdan uzaqdır. Əgər Xankəndi ərazisində yaşayan erməni əsilli vətəndaşlarımız hər hansı bir humanitar çətinliklə üzləşərsə, Azərbaycan öz vətəndaşlarının problemlərini həll etməyə qadirdir və bunu dəfələrlə bəyan edib.

Qeyd edək ki, bu cür yanaşma, BMT Nizamnaməsinin humanitar məsələlərlə bağlı müddəalarından sui-istifadədir. Hər hansı bir ölkənin ərazisinə humanitar missiya, yalnız o ölkənin razılığı əsasında göndərilə bilər. Azərbaycan buna razılıq verməyib və belə bir niyyəti də yoxdur.

Onu da diqqətə çatdıraq ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndidə ofisi var, bu təşkilatla əməkdaşlıq mövcuddur. Hər hansı bir çətinlik yaranarsa, Qırmızı Xaç Komitəsinin vasitəsilə həllini tapa bilər. Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınlarının və bu maşınların müşayiəti ilə təcili tibbi yardım avtomobillərinin, Laçın - Xankəndi yolunun hazırda aksiya keçirilən hissəsindən maneəsiz hərəkəti tam təmin edilib. Bu, bir daha göstərir ki, Xankəndidə heç bir humanitar böhran yaşanmır.

BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan, bu gün özünü haqqın, ədalətin, insan hüquq və azadlıqlarının müdafiəçisi kimi təqdim edən Fransa, necə deyərlər, öz gözündə tiri qoyub, başqasının gözündə tük axtarmaqla məşğuldur. Fransanın keçmişinə bir anlıq nəzər yetirdikdə, bu ölkənin müxtəlif dövrlərdə törətdiyi vəhşiliklərin, amansız qətliamların bəşəri cinayətlər olduğunu görməmək mümkün deyil. İnsanlara əzab-əziyyət vermək, demokratik normaları kobud şəkildə pozmaq sanki Fransanın əsas vəzifələrindən birinə çevrilib. Bu ölkənin Korsika bölgəsində baş verən haqsızlıqlar da bunu təsdiqləyir. Korsikada demokratik normaların pozulduğu artıq dünya ictimaiyyətinə də bəllidir.

Bu gün Qarabağdakı "zavallı ermənilərin" qayğısına qalan Fransa işğal altında saxladığı Korsika vətəndaşlarını da düşünsün. Korsikalılara siyasi fəaliyyət və ölkə parlamentində təmsil olunmaq hüququ verəcəyini vəd edən rəsmi Paris 22 ildir ki, bu vədi yerinə yetirməyib. Əksinə, korsikalıların vətəndaşlığını təsdiq edən sənədlərində milliyyətlərini məcburi şəkildə "fransız" yazdırırlar. Qanuni haqlarını tələb edən korsikalılar isə dərhal həbs olunur və ya təqiblərlə üzləşirlər. Fransa Prezidenti Azərbaycanın daxili işlərinə qarışmaqdansa və Qarabağda yaşayan ermənilərə "atalıq qayğısı" göstərməkdənsə, beynəlxalq aləmin də diqqət mərkəzində olan Korsikadakı repressiya siyasətinə son qoysa, daha yaxşı olar. Eləcə də ölkəmizə qarşı qərəzli mövqedə olan beynəlxalq təşkilatlar üzlərini Korsika adasına çevirib Fransanın buradakı bəşəri cinayətlərini görsünlər.

Fransa bilməli və heç zaman unutmamalıdır ki, Azərbaycan güclü dövlət kimi regionda əsas söz sahibidir. Bu cür təxribatlar, müxtəlif təzyiq üsulları ilə Azərbaycanın ədalətli mövqeyinə, haqq işinə kölgə salmaq mümkün deyil. Necə ki, bu, indiyə qədər mümkün olmayıb və olmayacaq da. Azərbaycanın heç bir dövlətin ərazisində gözü yoxdur, daim mehriban qonşuluq prinsiplərinə üstünlük verib, hətta özü uzun illər işğalla üzləşib, təcavüzkarlara qarşı mübarizə aparıb. Bu gün Azərbaycanın əsl məqsədi regionda davamlı sülh və sabitliyə nail olmaqdır.

***Yaqut Ağaşahqızı***








# Yeni il - yeni təqvim

## *Dünya ölkələri bu bayramı necə qeyd edirlər?*

***Dünyanın müxtəlif xalqlarının ənənəvi bayrama çevrilən Yeni il Azərbaycanda da insanların məişətinə daxil olub. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. Tarixi mənbələrdə qeyd olunduğu kimi, ilin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb.***

Tarixçi alimlərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

### HƏYATIN ÖLÜM ÜZƏRİNDƏ QƏLƏBƏSİNİN RƏMZİ

Yaşadığımız 2022-ci il iyirmi birinci yüzilliyin təqvimində tarixə qovuşdu. Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu şam ağacı təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa, daha gözəl olardı. Amma təbiəti qorumaq xatirinə süni şam ağacları ilə də keçirmək olar. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir?

Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl



başlayıb və hansısa bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə əkin allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlısanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı, burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ Evin qarşısında bu mərasim keçirilir. Beləcə, şam ağacı bütün dünyada məşhurlaşıb.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə, xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Fransada Şaxta Baba Per Noel - yeni Noel ata adlanır. O, Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə, bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar. Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə hədiyyə olaraq, ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

### İTALİYADA UŞAQLARIN ŞAXTA BABALARI YOX, ŞAXTA NƏNƏLƏRİ VAR

Yeni ildə İsveçrədə insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da, dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı - ata zibil atmaq bəhanəsilə evdən çıxır və Yul Tomten (Şaxta Baba) obrazında qayıdır və uşaqlara hədiyyələr paylayır. İtaliyada yeni ildə uşaqların isə Şaxta Babaları yox, Şaxta nənələri var. Onun adı Befan Nənədir. Bu ölkədə Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da, Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə, onlar həm də köhnə illə vidalaşırlar. Əgər Yeni il bayramı ərəfəsində təsadüfən Roma küçələrindən keçsəniz, ehtiyatlı olun. Çünki pəncərələrdən atılan köhnə ev əşyalarına hədəf ola bilərsiniz. İtalyanlar hesab edirlər ki, Yeni ilin astanasında, bütün pis fikirlərdən və köhnə əşyalardan xilas olmaq lazımdır.

Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən, ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə, o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

### AVSTRİYADA YENİ İL BAYRAMININ XEYİRXAH OBRAZLARI BACATƏMİZLƏYƏN VƏ DONUZDUR

Yeni ildə İslandiyada kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta Babanın onlara göz qoymasından ehtiyatlanaraq, ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür




tapa bilərlər. Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən, ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, yeni il daha bərəkətli olacaq.İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanına axışır. Üzüm yeməyə. Həm də kütləvi şəkildə. Hər kəs müəyyən vaxt ərzində 12 salxım üzüm yeməlidir. Bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur. Bu, onun üçündür ki, pis qüvvələr köhnə ildə ilişib qalsın. Avstriyada hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur.

Bu, əlbəttə, sonuncunun bayram süfrəsində həzm-rabedən keçirilməsinə mane olmur.Yeni il Avstriyada çox şən keçir, insanlar yeni il gecəsini küçələrdə şənlənməklə və karnavallarla keçirirlər.Yeni il Rusiyada ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət və xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl, Birinci Pyotrun əmri ilə qoyulub. Əmrdə, həmçinin, ağac bəzəmək də öz əksini tapıb. Məhz küknar ağacı 19-cu əsrin axırlarında dəbə minib.

### BRAZİLİYADA YENİ İL TOPLARDAN ATILAN ATƏŞLƏRLƏ QARŞILANIR

Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər - salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrənə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib, gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar və ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.

Yeni il dünyanın müxtəlif qitələrdə qeyd olunur. Məsələn, Braziliyada Yeni il toplardan atılan atəşlərlə qarşılanır. Atəş səsi eşidəndə, hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan, il xoşbəxtlik içində keçəcək.

Yaponiyada isə bayram günü Budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da, gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

### ÇİNLİLƏR YENİ İLİN GƏLİŞİNƏ MANE OLAN ŞƏR QÜVVƏLƏRİ QOVURLAR

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla, çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri qovduqlarını düşünürlər. Ən qəribə bayram hədiyyələrini isə eskimoslar bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiyadakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.

Hər bir ölkə özünəməxsus abhava ilə yeni ili qarşılayır. Hər yeni il gələcəyə açılan yoldur. Bayram özü ilə yeni arzular, yeni ümidlər gətirir. Qoy 2022-ci il hər bir insanın həyatında ən uğurlu illərdən biri olsun. Bütün insanları, xüsusilə də, dünya azərbaycanlılarını bayram münasibəti ilə təbrik edir, səmamızın açıq, ölkəmizin ruzili-bərəkətli, əmin-amanlıq şəraitdə olmasını arzulayırıq. Yeni iliniz mübarək!

***Nəzakət Bayramova***

# Orta Dəhlizin genişlənməsində mühüm həlqə - Zəngəzur




***Cənubi Qafqazın taleyində mühüm rol oynayan Azərbaycanın son illər yeritdiyi siyasət bütün bölgənin geosiyasi mənzərəsini dəyişməkdədir. Bu gün ölkəmiz həm region, həm də Qərb ölkələri ilə enerji sahəsində əməkdaşlıq edir. Genişmiqyaslı enerji layihələri ilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm yer tutan ölkəmizin geosiyasi mövqeyi gündən-günə möhkəmlənir. Bu gün regionun və Qərbin Xəzərlə bağlı bütün layihələrində mərkəzi yer tutan Azərbaycan Şərqlə Qərbi birləşdirən bir körpü rolunu oynayır. Respublikamız həm də Xəzər hövzəsi dövlətlərinin Qərbə çıxış yoludur.***







Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş və uğurlu siyasətin nəticəsində Qafqazda və Mərkəzi Asiyada uzunmüddətli tərəqqiyə və sabitliyə mühüm töhfələr verən respublikamızda son illər nəqliyyat infrastrukturunu inkişaf etdirmək üçün böyük layihələr həyata keçirilib. Yeni avtomobil yolları çəkilib və ya yenidən qurulub. Şərqlə Qərbi, Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu xətti inşa edilib. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir

Həmçinin Bakının Ələt qəsəbəsində Xəzər dənizinin ən böyük və müasir beynəlxalq liman kompleksi inşa edilib. Belə ki, Azərbaycan artıq Ələt ticarət limanının potensialını 15 milyon tondan 25 milyon tona qədər genişləndirməyi planlaşdırır. Buna səbəb isə son dövrlər yüklərin həcminin sürətlə artmasıdır. Cari ilin 9 ayı ərzində 60 faiz artım müşahidə olunub ki, bu da yüklərin nəqlində əhəmiyyətli göstəricidir. Bütün bunlar deməyə əsas verir ki, dövlətimizin başçısının söylədiyi kimi, bu gün açıq dənizlərə çıxışı olmayan Azərbaycan artıq çox mühüm nəqliyyat şəbəkəsi yaradıb.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib: "2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir".

Zəngəzur dəhlizi böyük tranzit imkanlarına malik, Şərqlə Qərbi birləşdirəcək strateji körpüdür. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri, bütün türk dünyası üçün mühüm rol oynayacaq. Yalnız Cənubi Qafqaz üçün deyil, bütün region üçün strateji əhəmiyyətə malik olan bu dəhliz böyük bir iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək.

Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsində iştirak etməklə, daha doğrusu, birləşdirici funksiyasını yerinə yetirməklə Şərqlə Qərbi birləşdirən körpü rolunda çıxış edir. Bu mənada ekspertlərin də dedikləri kimi, dünyanın iqtisadi nəhənglərindən olan Çinin Orta Asiya ölkələri vasitəsilə Azərbaycan üzərindən Avropaya yük daşıması ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Dünyada baş verən geosiyasi proseslər də Azərbaycanın beynəlxalq nəqliyyat daşımalarında strateji önəmini artırıb. Bu, özünü ölkə üzərindən daşınan yüklərin həcmində də göstərib.

Təbii ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu dövlətimizin başçısının dediyi kimi, Orta dəhlizin-Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun bir hissəsi olacaq. Regionda və Qərbi Xəzər bölgəsində həyata keçirilən bütün bu layihələr sinxronlaşdırılmalıdır. Zəngəzur dəhlizi, həmçinin Aşqabad müqaviləsi ölkələrinin Avropaya reinteqrasiyası üçün geniş perspektivlər açır. Yeri gəlmişkən, Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələrin ərazisindən həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun və Naxçıvanın iqtisadi potensialının artırılmasında xüsusi rol oynaya bilər.

Göründüyü kimi, sözügedən dəmir yolunun çəkilişi iqtisadi əlaqələrdə yeni mərhələ açacaq. Bu marşrut Çinin Mərkəzi Asiya vasitəsilə Avropa ilə artan əlaqələrini təmin etməsi üçün də yeni mərhələ kimi qiymətləndirilə bilər.

***Zahid Rza***

# Rusiyanın iri teleqram kanalı erməniləri "ağ yudu, qara sərdi"!



"Kremlyovskaya praçka": "Bəs ümumiyyətlə kimsiniz ki, sizinlə rus generalı danışsın? Hər halda onun nankor isteriklərinizin toplaşdığı və heç kim tərəfindən tanınmayan banan respublikanızdan daha vacib işləri var"





***Ermənilər gərginlik yaratmağa davam edirlər. Rusiya sülhməramlılarının ünvanlarına yönələn təhdidlərə bəzi "xüsusi ağıllıların" məqsədləri də əlavə olunmaqdadır. Onlar Gümrüdəki 102-ci hərbi bazanı blokadaya almaq fikrindədirlər. SİA xəbər verir ki, bu barədə Rusiyada 250 mindən çox izləyicisi olan nüfuzlu "Kremlyovskaya praçka" teleqram kanalı yazır. Adıçəkilən kanal ermənilərin bu kimi oyunbazlıqlarını "odla oynamaq" kimi qiymətləndirib və yazıb ki, belə bir vəziyyət çox təhlükəli nəticələrə gətirib-çıxara bilər. SİTAT: "Bu sübut edir ki, İrəvanda kimdəsə özünüqoruma instinkti birdəfəlik itib. Rusiyanın hərbi bazasını mühasirəyə almaq qərarını "Milli demokratik qütb" ("MDQ") adlı təşkilat verib. Əsasən həmin bəyanatı hərəkatın rəhbərlərindən biri - odioz Vaqe Qasparyan səsləndirib".***

### "Paşinyan vaxtilə öz hakimiyyəti dövründə Qərbə tərəf yönələn birinci prezident Levon Ter-Petrosyanın şagirdi hesab olunur"

Teleqram kanalı xatırladıb ki, "MDQ" özündə qərbyönümlü oruentasiyaya mülik olan radikal erməniləri birləşdirir və yeni sistem onların nəzərincə məhz Vaşinqtonun patronajlığı altında qurulmalıdır. SİTAT: "Burada xatırlatmaq olardı ki, fəaliyyət göstərən erməni baş naziri Paşinyan vaxtilə öz hakimiyyəti dövründə Qərbə tərəf yönələn birinci prezident Levon Ter-Petrosyanın şagirdi hesab olunur. 1998-ci ildə o daha bir qərbpərəst, Aşot Belyanın seçki qərargahında koordinatorluq edib. Yeri gəlmişkən, Qarabağ münaqişəsinin ən qızğın dövründə o Bakını ziyarət etmişdi".

### "Agent Nikol" birmənalı olaraq, tamamilə və rəsmi şəkildə ABŞ-ın vassalları sırasında dayanmağa doğru can atır"

"Kremlyovskaya praçka" teleqram kanalı sual edir - belə olan halda biz nəyi müşahidə edirik? SİTAT: "Paşinyan bu cür müəllimləri ilə birmənalı olaraq qərbyönlü marionetə çevrilib. O, sadəcə yetkin olmayan vicdanı ilə Rusiya ilə müttəfiqlik münasibətlərinə söykənir və bunu yalnız özünə sərf edən vaxtlarda istifadə edir. "Agent Nikol" birmənalı olaraq, tamamilə və rəsmi şəkildə ABŞ-ın vassalları sırasında dayanmağa doğru can atır".

"Lakin Ermənistanın baş naziri radikalların Rusiya hərbçilərinə təhdid yağdırmaq fəaliyyətlərinə susqunluq kart-blanşı verirsə - artıq bu həddini aşmaqdır", yazan teleqram kanalı qeyd edib ki, 102-ci baza İrəvan üçün erməni dövlətçiliyinin qorunmasının zəmanətidir. SİTAT: "Bu ərazilərdən Rusiya silahlı qüvvələrinin gedişi Vaşinqtona sərf edir, belə ki, Moskvanın regiondakı mövqeləri zəifləyəcək. Lakin bu, ermənilər üçün intihar olacaq. Axı Vaşinqton bu zaqafqaziya respublikasına nə vəd verib ki, o da birdəfəlik satılmağa, təxribatlar vasitəsi ilə fəlakətli sonunu yaxınlaşdırmağa razılıq verib?"

### "Bütün demarşlar rəsmi erməni spikerlərinin sülhməramlı kontingentinə münasibətlərindəki narazılıqlarından qaynaqlanır"

Xatırladaq ki, adıçəkilən kanal bundan əvvəlki ittihamında da Ermənistanın Rusiyanın "kürəyindən xəncər vurub". SİTAT: "Budur, artıq İrəvanda "Ruslar düşmənlərimizdir" çağırışları səslənir. İndi həmin hal "stepanakertdə" (dırnaqlar bizimdir) yəni Xankəndidə də səslənir və daha təhlükəki hal alır. Çünki birbaşa olaraq bizim hərbi qulluqçuları təhdid edirlər. Bütün demarşlar rəsmi erməni spikerlərinin sülhməramlı kontingentinə münasibətlərindəki narazılıqlarından qaynaqlanır. Ona görə də, anti-Rusiya aksiyalarının kimin sifarişçi olması heç də çətin deyil".

Digər tərəfdən, adıçəkilən teleqram kanalı MDB ölkə başçılarının Sankt-Peterburqdakı qeyri-rəsmi sammitinə də toxunub. Yazıb ki, məhz Paşinyan Rusiyaya qarşı növbəti iradlarını irəli sürüb və bildirib ki, Rusiya sülhməramlıları Laçın "dəhlizində" (yolunda) nəzarəti əldən veriblər. SİTAT: "Bundan sonrası texnikanın işidir - "dinc aksiya" görüntüsü altında heç də yaxşı görünməyən tarixə qədəm qoyulur. "Sabahın artsaxı" adlı "partiyanın" sədri Tiqran Petrosyanın tipindəki fəallar blokpostları mühasirəyə almağa hazırlaşırlar və sülhməramlı gücün komandanı Andrey Volkovla görüşməyi tələb edirlər. İfanın görünüşü sanki 2018-ci ilin "məxməri inqilabını" xatırladır. Həmin vaxt etiraz fəaliyyətləri Facebook üzərindən koordinasiya olunurdu və indi Petrosyan tipli ünsürlər yenidən sosial şəbəkələr vasitəsi ilə kütləni silkələməyə çalışır, "artsax xalqını" "Əgər Volkov bizim cəmiyyətə hörmətsizlik göstərərsə, biz daha kardinal ölçülər götürməli olacağıq" xarakterli təxribatçı rəylərinə dəstək verməyə çağırır".

### "Ancaq bəri başdan xəbərdarlıq ki, bundan sonra ağlamaq-sızlamaq olmayacaq"

"Kremlyovskaya praçka" teleqram kanalı sual edir: "Bəs ümumiyyətlə kimsiniz ki, sizinlə rus generalı danışsın? Hər halda onun nankor isteriklərinizin toplaşdığı və heç kim tərəfindən tanınmayan banan respublikanızdan daha vacib işləri var. Hər kəsə artıq anladıblar ki, "daağlıq" (dırnaqlar bizimdir) Qarabağda vəziyyətin nizamlanmasını təmin etmək üçün lazım olan hər şey edilir. Əgər verbal təmas yetmirsə, onda hadisələrin güc ssenarilərinə baxmaq olar. Ancaq bəri başdan xəbərdarlıq ki, bundan sonra ağlamaq-sızlamaq olmayacaq", deyə ermənilərə xitabən adıçəkilən rus teleqram kanalı yazıb.







**Rövşən RƏSULOV**

***Rusiya xarici işlər nazirinin keçmiş müavini Andrey Fyodorov 2023-cü ildə Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı proqnozlarını açıqlayıb. O, "Moskva-Bakı"ya müsahibəsində prosesin gedişi ilə bağlı vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

# Andrey Fyodorov: “Ermənistanın arxasında Fransa və ABŞ dayanır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bu il imzalanmadı, baxmayaraq ki, Bakı dəfələrlə buna hazır olduğunu bildirib...**

- Məncə, şərait hələ yetişmədiyi üçün belə oldu. Belə bir müqavilənin imzalanması üçün hər iki tərəfin qarşılıqlı hazırlığı lazımdır. Və vasitəçinin qətiyyəti lazımdır.

Azərbaycanın qətiyyəti var, Ermənistanın hazırlıqsızlığı və Rusiyanın yarıtmaz mövqeyi var. Hazırda Rusiya Federasiyası üçün İrəvanı dizdən sındıraraq sülh müqaviləsini imzalamağa məcbur etmək çətindir. Moskva bir çox səbəblərə görə bunu etmək istəmir. Bu gün Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyət belədir.

**- Bəs İrəvana normallaşmaya doğru getməyə və əvvəllər əldə edilmiş bütün razılaşmaları yerinə yetirməyə nə mane olur?**

- İrəvana Qarabağ problemi mane olur. Ermənistanda çoxları üçün Qarabağ məsələsi açıq qalır, bunun əlavə təhlil tələb etdiyi bildirilir və deylir ki, onun gələcək taleyini həll etmək üçün beynəlxalq mexanizmləri cəlb etmək lazımdır. Fransa fəal şəkildə bu problemi ermənilərin xeyrinə həll etməyə çalışır. Ona görə də vəziyyəti tez dəyişmək imkanını görmürəm.

**- Mexanizmlərə gəlincə, İrəvan bu barədə yalnız son aylarda fəal şəkildə danışmağa başlayıb. Və xatırlayırıq ki, ilin əvvəlində Paşinyan deyirdi ki, beynəlxalq ictimaiyyət İrəvandan Qarabağın statusu ilə bağlı gərginliyi aşağı salmağı tələb edir. Bunlar necə uyğun gəlir?**

- Bəli, Paşinyanın bu açıqlaması, dediyiniz kimi, ilin əvvəlində idi. Və nəticədə çətin bir il yaşadıq. Ənənəvi sakit il deyildi, danışıqlar aparmaq, qərar vermək lazım idi və s. Unudulmamalıdır ki, Ermənistanda da daxili proseslər kifayət qədər sürətlə inkişaf edib və Ermənistanın baş naziri bir neçə dəfə əvvəlki açıq şəkildə səsləndirdiyi mövqeyinə düzəliş etməli olub. Və hər dəfə mövqeyin dəyişməsini daxili amillərlə deyil, dəqiq olaraq xarici amillərlə əsaslandırıb.

**- Belə çıxır ki, Qərb tərəfdaşları il ərzində İrəvana kömək ediblər...**

- Bəli, birinci Fransa, sonra isə ABŞ. Sadəcə fərqli yanaşma var. Erməni diasporunun lobbi maraqlarının fəaliyyət göstərdiyi Fransadan fərqli olaraq, ABŞ-ın Cənubi Qafqazda necə davranacağına dair strateji baxışı var və bu, Fransadan daha geniş geosiyasi baxışdır.

ABŞ-da, xüsusən Nensi Pelosinin İrəvan səfərindən sonra deməyə başladılar ki, gəlin Ermənistana pul verək, əvəzində Ermənistanın KTMT-dən çıxmasına səbəb olmaqla dəstək olaq. Yəni, bir az fərqli məntiq var.



**- Qərb bu il Ermənistanı aktiv şəkildə ələ keçirdi. Biz mütəmadi olaraq ABŞ, Fransa, Avropa Şurasından İrəvana zənglər və cavab zəngləri görürük.**

- Əlbəttə, özü də çox aktiv şəkildə.

**- Sizcə, ilin sonuna kimi nizamlanmada vəziyyət daha da pisləşib, mürəkkəb qarmaqarışıqlığa çevrilibmi?**

- O, sadəcə danışıqdan imtina etdi. Vəziyyət eynilə qalır. Və onu bu və ya digər istiqamətdə hərəkət etdirmək olduqca çətindir.

**- Vəziyyətin kənara yerdəyişməsini nə müəyyənləşdirəcək... və daha bir sual çıxır ki, hansı istiqamətdə...**

- Bunu kənara çəkmək üçün Bakı ilə İrəvan arasında az-çox real razılaşma lazımdır. Rusiyanın vasitəçiliyi ilə əldə olunan üçtərəfli razılaşmalar var. Ancaq eyni zamanda, sülh müqaviləsi üzərində işləmək üçün real proses yoxdur. İndi İrəvan öz mövqeyini gücləndirmək və istənilən real danışıqlar prosesini ləngitmək üçün çox fəal şəkildə xarici faktordan istifadə etməyə çalışır.

**- Lavrov artıq bir neçə dəfə qeyd edib ki, Azərbaycan və Ermənistan liderlərinin Praqa bəyanatı, əslində, bütün məsələləri həll etmək imkanı verir. Və bu sənədə görə belə çıxır ki, Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Ötən həftə Rusiya diplomatiyasının rəhbəri qeyd edib ki, sülh müqaviləsinin imzalanmaması üçün heç bir səbəb yoxdur. Lavrov hansı siqnalları verir?**

- Hansı siqnallar olduğunu bilirsiniz. Əslində, sülh müqaviləsi yekun sənəddir, imzalanandan sonra geriyə dönüş yoxdur. Ermənistan, görünür, geri dönüşü olmayan nöqtəyə hazır deyil.

İrəvan demir ki, biz gələcəkdə heç vaxt heç nəyə imza atmayacağıq. Danışıqlar prosesinin və üçtərəfli sazişlərin icrasının ləngiməsi bununla paralel olaraq beynəlxalq ictimaiyyətin Qarabağ məsələsinə diqqətinin artmasına səbəb olur-

bütün bunlar Ermənistan üçün çox faydalıdır və ona işləyir.

Rusiya diplomatiyasının rəhbəri məlum səbəblərdən sülhyönümlü prosesdə, başlanmış işin sona çatdırılmasında maraqlıdır. Dediyim kimi, problem ondadır ki, indiki vəziyyətdə Rusiyanın İrəvana təzyiq imkanları çox məhduddur. KTMT-nin son sammiti, eləcə də Ermənistanın bundan sonra atdığı bir sıra addımlar bunu göstərdi.

Lavrovun tezisləri Ermənistanı sıxışdırmaq cəhdidir. Moskva başa düşür ki, əks halda Rusiya Cənubi Qafqaz yolunda qeyri-müəyyən vəziyyətdə qalacaq. Yəni, çox iş görüblər, sülhməramlılar yerləşdiriblər və sair, amma biz son nöqtəyə gələ bilmirik. Rusiya son məqamda- sülh müqaviləsində maraqlıdır. Çünki bundan sonra biz münasibətləri başqa cür qura biləcəyik, deyin ki, bu problemlə hər şey bitdi. İndi gəlin Cənubi Qafqazda yeni geosiyasi məkan quraq.

**- Ermənistanın bu cür davranış planının məqsədi nədir?**

- Onların nöqteyi-nəzərindən bu, yenə də Qarabağın ayrıca bir mövzu kimi ayrılmasıdır. Ona beynəlxalq səviyyədə tanınmış ərazi statusunun verilməsi və ya Ermənistan dövlətinin tərkibində mövcudluğu.

**- Bu, obyektiv olaraq qeyri-realdır. Belə bir ssenarinin həyata keçirilməsi son dərəcə ciddi nəticələrə səbəb olacaq ki, bu da müxtəlif qüvvələrin cəlb olunacağıdır.**

- İndi nəyin real, nəyin qeyri-real olduğunu söyləmək çox çətindir. Söhbət ondan gedir ki, İrəvan bu taktiki məqsədə doğru irəliləyir. Lakin obyektiv olaraq, beynəlxalq səviyyədə tanınmış, müstəqil Dağlıq Qarabağın mümkün olması həqiqətən də çətindir. Mən buna inanmıram, mümkün deyil. Ancaq status-kvonu saxlamaq tamamilə mümkündür. İndi Qarabağda sona qədər döyüşməyə çağıran revanşist qüvvələrin necə fəallaşdığını görürük. Müxtəlif yollarla mübarizə apara bilərsiniz. Belə üsullardan biri diplomatik gecikmədir. Axı müəyyən taktika ilə danışıqlar çox uzun müddətə aparıla bilər. Biz bunu Ermənistan-Azərbaycan məskunlaşmasının təxminən 25 ili ərzində görmüşük. Həmişə prosesi dayandıra biləcək əlavə xarici amillər tapmaq mümkündür.

**- Laçın yolundakı vəziyyət də bilərəkdən imitasiya edilmiş vəziyyətdir?**

- O, elə əvvəlki vəziyyətə gəldi. Kağızda hər şey ənənəvi olaraq gözəl və davamlıdır, amma praktikada- yox.

**- Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Sankt-Peterburqda üçtərəfli görüşü niyə rəsmi yox, pərdəarxası formatda baş tutub?**

- Rusiyaya nəticə verməyəcək rəsmi görüş lazım deyil.

**- Gələn il vəziyyətin nizamlanması ətrafında yaranmış vəziyyətdə Moskva necə davranacaq?**

- Obyektiv desək, Ermənistanla Azərbaycan arasındakı vəziyyət indi Rusiya üçün Ukraynadan arxa planındadır. Düşünürəm ki, gələn il hər iki tərəfi danışıqlar masası arxasına oturtmağa çalışmaq, sülh müqaviləsinin necə olması və onun necə həyata keçiriləcəyi ilə bağlı müəyyən bir anlayışa gəlməyə çalışmaq ləng bir proses olacaq. Unutmaq olmaz ki, sülh müqaviləsi bağlanandan sonra onu imzalayan ölkələrin parlamentləri hələ onu ratifikasiya etməlidirlər. Bəs Ermənistan parlamentinin onu ratifikasiya edəcəyinə zəmanət haradadır? Belə bir zəmanət yoxdur. Buna görə də nəzərə alınmalı olan bir çox çətin məqamlar var. Və başa düşmək lazımdır ki, Rusiya da 100% əmin olmadan vəziyyətə təzyiq əlavə etmək riskini öz üzərinə götürmək istəmir.

Rusiya üçün nəticə prinsipial əhəmiyyət kəsb edir. Rusiya sabah heç bir nəticənin olmayacağını görəndə yavaşlayır. Nəticənin mümkün olduğunu görəndə çox fəal işləyir.

Ən azından Qərblə münasibətlərimizin soyuması, yumşaq desək, nizamlanmaya doğru hərəkətdə rol oynayır. Rusiya görür ki, Qərb Cənubi Qafqaz istiqamətində kəskin şəkildə fəallaşıb və öz oyunlarını oynamağa çalışır. Amma indi bu mövzunu Avropa və ABŞ ilə müzakirə etməyimiz ümumiyyətlə mümkün deyil. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına çoxlu xarici amillər təsir edir. Söhbət sülh müqaviləsindən çox, onun imzalanmasını mümkün və ya qeyri-mümkün edən xarici amillərdən gedir. İndiyə qədər prosesi ləngidən xarici amilləri daha çox görürəm.

**- Ermənistanın Rusiya sülhməramlılarını ardıcıl tənqid etməsi Rusiya qarşısında şərt qoymaq cəhdidirmi?**

- Bilirsiniz, İrəvan doğrudan da Rusiya sülhməramlılarının Qarabağda yerləşdirilməsinin Ermənistan üçün əlavə sipər olacağına ümid edirdi. Bu da alınmadı, sülhməramlılar sülhün qorunmasında obyektiv, balanslı rol oynamağa çalışırlar. Və buna cavab olaraq gözləntiləri özünü doğrultmayan Ermənistandan tənqidlər gəlir. Ona görə də İrəvan belə bir ideya irəli sürür ki, guya Rusiya sülhməramlıları erməni tərəfinin təyin etdiyi problemlərin həllini təmin etmir. Hər halda, sülhməramlılar olmasaydı, vəziyyət daha pis olardı.

Nizamlanmada formalaşan bütün bu vəziyyət, təbii ki, indi növbəti ilə həll olunmamış problemlər formasında keçir. Rusiya üçün də, Azərbaycan üçün də, Ermənistan üçün də həll olunmayıb.

**- Yəni nizamlanmada gələn il üçün proqnozlar müsbətdən çox mənfi işarəlidir?**

- Yox. Nə müsbət, nə də mənfi. Qeyri-müəyyənlik işarəsi qoyardım. O, vəziyyəti ən obyektiv şəkildə xarakterizə edəcək. Qeyri-müəyyənlik ona görə ki, artıq iki il əvvəl, daha sonra isə Azərbaycan və Ermənistan liderlərinin Rusiyanın vasitəçiliyi ilə razılaşdırılan o addımların məntiqi artıq qırılıb. Bütün müddətlər artıq keçib. Artıq bir sıra məsələlərdə Qərbin rolu dəyişib. 2020-ci ildə üçtərəfli bəyanat imzalananda heç kim düşünmürdü ki, ABŞ-dan Ermənistana bu qədər aktiv və hətta nümayişkaranə dəstək olacaq. Ona görə də bu mürəkkəb amillər Ermənistan-Azərbaycan prosesində növbəti il üçün potensial olaraq üstünlük təşkil edən qeyri-müəyyənlik amilini proqnozlaşdırır.

**- Ermənistan-Azərbaycan nizamlanmasındakı ənənəvi işarə yenidən qüvvəyə minir... Bəs Rusiya-Azərbaycan münasibətlərindən danışsaq, 2022-ci ildə bu münasibətlər necə idi?**

- Yaxşı, pozitiv idilər. Və mənim fikrimcə, ən əsası odur ki, baş verən problemlərə baxmayaraq, ən yüksək səviyyədə dialoq heç vaxt pozulmayıb. Çünki Rusiya və Azərbaycan liderləri ikitərəfli münasibətlərin inkişafında həlledici oyunçulardır, onların real vəziyyəti, ətrafda nə baş verməsindən asılı olmayaraq, onlar bu münasibətləri gücləndirirlər. İl ərzində ən yüksək səviyyədə konstruktiv dialoq səmərəli olmuşdur. Bu səviyyədə heç vaxt olmayıb. Bu çox vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



# “Pozitiv enerji işin uğurlu bitəcəyindən xəbər verən əsas ünsürlərdəndir”

***"İlk olaraq bildirmək istərdim ki, insanlar bir müddətlik tətillərdən, bayram günlərindən sonra yenidən iş həftəsinə başladıqda onlarda işə adaptasiya prosesi müəyyən mənada çətin olur. Xüsusən də bu hal istirahət günləri uzun olanda daha çox baş verir. Əslində bəzən insanlar belə düşünür ki, istirahət və tətil günlərinin müddəti nə qədər uzun olsa o qədər yaxşıdır, çünki enerji toplayıb əvvəlkindən də aktiv bir şəkildə işlərimizin başına dönə bilərik.***

Ancaq, bəzən tam əksinə olur, çünki rahatlığa, evdə istirahət etməyə öyrəşdikdən sonra yenidən işə qayıtmaq, adaptasiya olmaq çətin olur". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman- klinik psixoloq Narınc Rüstəmova bildirib.

Onun sözlərinə görə, hallar həftəsonlarından sonra yeni bir iş həftəsinə başladıqda da ola bilir: "Adətən bayram, məzuniyyət günlərindən əvvəl insanlar tam şəkildə bütün işlərini yekunlaşdırıb bitirirlər, ancaq bildirmək lazımdır ki, bu da adaptasiya prosesində problemlər yaradan ünsürlərdən biridir. Ancaq yaxşı olar ki, çox az miqdar işlər qalsın və ya digər optimal bir yol kimi qeyd etmək olar ki, insanlar bayram günlərində və evdə qaldıqları günlərdə işə başlayacaqları zamanın cədvəlini, görüləcəkləri işlərinin planını qursunlar. Yəni bu günlərdə də psixoloji olaraq işlə tam əlaqəni kəsməsinlər. Belə situasiyada onlar gündəlik iş həftəsinə başlayanda adaptasiya problemi ilə üz-üzə qalmayacaqlar.

Məsələn, elə qarşıdan Yeni il bayramı gəlir və bütün iş müəssisələrində bu münasibətlə bir neçə gün qeyri-iş günü olacaq. Bu zaman qeyd etdiyimiz kimi, insanlar dekabr ayı ərzində bütün işlərini yekunlaşdırıb tətilə gedəcəklər, artıq onlar bayram günlərində yeni təqvim ilinin ilk ayında və yaxud ilk həftəsində edəcəkləri işlərin planını qurub siyahılaşdırsalar, onlar üçün yeni iş həftəsi uğurlu olacaq. Bu tip proseslər əslində insanlarda məsuliyyət hissini də artırır və hər şey plana uyğun şəkildə getdikdə problemlər də yaşanmır və insanlar qeyri-ixtiyari olaraq əvvəlki aktiv iş rejiminə dönürlər. Burada mütəmadilik, planlılıq və təkrarlılıq psinsipləri vacib hissələri təşkil edir və bunlara riayət olduğu müddətcə insanlar heç bir problemlə üzləşməyəcək. Onlar fikirləşirlər ki, tətil günləri tez bitsin və mən yarım qalan işlərimi yekunlaşdırım və ya planladığım iş üzrə hərəkət edim. Bundan əlavə vurğulamaq istəyirəm ki, insanlar iş otağına gəldiyi zaman yaxşı olar ki, özünə kiçik bir hədiyyə alsın və ya otaqda hansısa bir əşyanın yerini dəyişsin. Bu da bir yenilikdir və insanı müəyyən mənada motivasiya edir. Adaptasiya probleminin yaranmaması kimi digər bir yol da istirahət günlərində ancaq evdə oturmamaq, qalmamaqdır. Yəni, bu günlərdə evdən çıxmaq, gəzmək, ailə və ya dostlarla vaxt keçirmək, başqa sözlə ifadə etsək fiziki və psixoloji aktivlik də iş həftəsinə təsir edəcək hissələrdən biridir.

Yuxarıda qeyd etdiyim kimi, adaptasiya probleminin yaranmasının səbəblərindən biri də tətil və bayram günlərində insanların fiziki olaraq ayrıldığı iş həyatından psixoloji olaraq da qopmalarıdır. Belə ki, insanlar çox zaman bu yanlış düşüncədə ola bilirlər və istirahət günlərində iş həyatı ilə olan bağlantılarını kəsirlər, hətta bəzən iş telefonlarını səssiz rejimə qoyanlar və ya tamamilə söndürənlər də olur. Ancaq, qeyd etdiyim kimi bu doğru yanaşma üsulu deyil və nəticədə adaptasiya probleminə gətirib çıxarır. İşə adaptasiya ola bilməmək də, iş keyfiyyətinin aşağı düşməsində əsas faktorlardan biridir. Belə bir situasiya olduğu zaman işə qarşı istəksizlik, tez-tez yorğunluq hissi, məsuliyyətsizlik, əslində normal vaxta qısa bir müddətdə həll ediləcək işi uzun zaman həll edə bilməmək və s. kimi problemlər də üzə çıxa bilir. Bunlardan əlavə yuxu pozulmaları, səhər erkən oyana bilməmək və mütəmadi olaraq işə gecikmələr də artmağa başlayır ki, bunlar da bütöv bir şəkildə iş prosesinə mənfi təsir göstərir və işlərin ləngiməsinə, vaxtında bitməməsinə, yığılaraq çoxalmasına və son nəticədə hətta stess halına və bundan yaranan depressiv vəziyyətlərə gətirib çıxarır.

Son olaraq bildirmək istəyirəm ki, insanlar özlərini hər zaman gümrah, enerjili saxlamalı və yeni başlanğıclara, sürprizlərə açıq olmalıdırlar. Çünki pozitiv enerji və yaxşı başlanğıc əslində elə işin də uğurlu bitəcəyindən xəbər verən əsas ünsürlərdən biridir".

***Səbinə Hüseynli***



# Pele daha yoxdur...

Əfsanəvi braziliyalı futbolçu Pele 82 yaşında vəfat edib. O, uzun müddət xərçənglə mübarizə aparıb. "Futbol kralı" futbolçu kimi yeganə üççat dünya çempionu olub. Qeyd edək ki, xəstəlik 2021-ci ilin payızında Peledə aşkarlanıb. Bundan sonra 82 yaşlı braziliyalı kimyaterapiyadan keçib, lakin sonradan orqanizm buna cavab verməyi dayandırıb.

# Dəri problemlərini aradan qaldırmaq üçün bundan istifadə edin!

***Hialuron turşusu (HA), təbii olaraq meydana gələn saxarid və ya şəkər, müxtəlif dəri proseslərini gücləndirmək, həmçinin dərini sıx saxlayan hüceyrədənkənar matris strukturlarını saxlamaq qabiliyyətinə görə son vaxtlar çox diqqət çəkən dəriyə qulluq məhsulları arasındadır. SİA xarici mətbuata istinadən xəbər verir ki, dərinin hüceyrədənkənar matrisi dərinin elastikliyini, möhkəmliyini təyin etməkdə həlledici rol oynayır.***



Kollagen və elastin bu quruluşun iki əsas komponentidir. Dərinin sıx qalmasına kömək edir. Bundan əlavə, hialuron turşusu hidrofilik bir materialdır, yəni nəm çəkmək və saxlamaq qabiliyyətinə malikdir. Əslində, tək bir hialuron turşusu molekulu öz ağırlığından qat-qat çox nəm saxlaya bilir. Bu xüsusiyyətinə görə dərini nəm saxlamaq üçün də hialuron turşusu lazımdır.

HA ilə yanaşı, natrium hialuronat da kosmetik məhsullarda istifadə olunur və bəzi əhəmiyyətli fərqlər olsa da, "hialuron turşusu" olaraq adlandırılır. Dərini nəmləndirmək üçün hialuron turşusunu oral losyonlar, topikal losyonlar, serum əlavələri və hətta iynələr kimi istifadə etmək mümkündür.

***Ləman Əlizadə***

# Bakıda ər arvadının başını kəsib özünü öldürdü

***Bakıda ər arvadının başını kəsib intihar edib. SİA-nın məlumatına görə, hadisə paytaxtın Sabunçu rayonunun Maştağa qəsəbəsində baş verib. Qəsəbə ərazisində kirayədə yaşayan 1970-ci il təvəllüdlü Ələsgərov Elxan Qəzənfər oğlu yaşadığı evdə həyat yoldaşı Əsədova Mahirə Mirzə qızının boğazını kəsərək qətlə yetirib. Daha sonra o özünün bilək nayihəsini doğrayaraq intihar edib.***



Hər iki şəxsin meyiti evdən aşkar edilib. Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci(qəsdən adam öldürmə) və 125-ci(özünü öldürmə həddinə çatdırma maddələri ilə cinayət işi başlanıb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**